**UDC:** 811.411.21.
**LBC:** 81.1
**MJ №** 299
10.33864/2617-751X.2025.v8.i4.14-52

# EXAMPLES FROM (FABRICATED) HADITHS ON THE TOPIC IN THE WORK “ANWAR AL-TANZIL WA ASRAR AL-TA’WIL”

**Anvar Mustafayev***

**Abstract.** The famous work “Anwar al-Tanzil wa Asrar al-Ta’wil”, known as Beyzavi’s tafsir, was taught as a textbook in madrasas. Especially during the Ottoman period, it was read and discussed in the presence of the sultan under the title of “huzur lessons.” As its title suggests, the work was written by Abu Sa‘id Nasir al-Din Abdullah ibn ‘Umar al-Baydawi al-Shirazi (d. 685/1286 or 691/1291). In the work, the exegete attempted to combine the methods of dirayah (rational) and riwayah (narrative) tafsir. Since Nasir al-Din Beyzavi was a Shafi‘i in madhhab and an Ash‘ari in aqidah, it is possible to observe these theological views in certain topics, especially in matters related to kalam (Islamic theology). In addition, the work includes the transmission of hadiths- reflecting elements of the riwāyah and tafsīr method and style- not only through authentic (ṣaḥīḥ) hadiths, but also through weak and fabricated (mawḍūʿ) ones. This shows that there are narrators in the isnad of some hadiths who are weak or unreliable, and that the narrations which were later proven to be fabricated in scholarly sources are also included. Regarding Beyzavi’s method of narrating hadiths, the exegete often transmits directly from the Companions and the Prophet (PBUH) without mentioning the full chain of transmitters. This prevents the evaluation of the narrators in terms of jarh and ta‘dil (criticism and authentication). In total, the number of fabricated and weak hadiths in Beyzavi’s tafsir reaches one hundred and seventeen. In this article, twenty-two examples of fabricated and weak hadiths are presented. These examples cover the surahs al-Fatiha, al-Baqarah, Al ‘Imran, and al-Nisa’. As for the method of studying the fabricated hadiths in Beyzavi’s tafsir,

---

* Azerbaijan Institute of Theology, Senior Lecturer at the Department of Languages and Social Sciences; Baku, Azerbaijan
E-mail: anvarmustafayev@ait.edu.az
https://orcid.org/0000-0001-8196-1337
**To cite this article:** Mustafayev, A. [2025]. EXAMPLES FROM (FABRICATED) HADITHS ON THE TOPIC IN THE WORK “ANWAR AL-TANZIL WA ASRAR AL-TA’WIL”. *“Metafizika” journal, 8(4),* pp.14-52.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.14-52

**Article history:**
*Received: 19.05.2025*
*Accepted: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

comparisons were made with the tafsir works of scholars such as Zamakhshari (d. 538/1143), Tha‘labi (d. 437/1046), Abu al-Su‘ud (d. 982/1575), al-Khatib al-Shirbini (d. 977/1570), etc., to determine whether such hadiths are present in their works. Particularly noteworthy is that Beyzavi directly quoted hadiths about the virtues of surahs from al-Zamakhshari’s (d. 538/1143) al-Kashshaf in both chain and text. Additionally, references to the works of prominent scholars who wrote about fabricated hadiths, such as Abu al-Faraj ‘Abd al-Rahman ibn ‘Ali Ibn al-Jawzi (d. 597/1201), Saghani (d. 650/1252), Ibn Taymiyyah (d. 728/1328), Suyuti (d. 911/1505), Fattani (d. 986/1578), ‘Ali al-Qari (d. 1014/1605), and al-Munawi (d. 1031/1622), who wrote a takhrij work on Beyzavi’s tafsir, contributes to the in-depth study of the subject. As a result, despite the scientific and literary value of “Anwar al-Tanzil wa Asrar al-Ta’wil”, it must be carefully noted that some of the hadiths used in the tafsir are weak and fabricated in terms of source reliability. Therefore, when studying this tafsir, it is essential to compare it with the principles of hadith science and reliable hadith sources.
**Keywords:** Baydawi, “Anwar al-tanzil”, Quran, Fabricated, Hadith

**УДК:** 811.411.21.
**ББК:** 81.1
**MJ №** 299
10.33864/2617-751X.2025.v8.i4.14-52

# ПРИМЕРЫ (ВЫМЫШЛЕННЫХ) ХАДИСОВ ПО ТЕМЕ В ПРОИЗВЕДЕНИИ «АНВАР АТ-ТАНЗИЛЬ ВА АСРАР АТ-ТА'ВИЛЬ»

**Анвар Мустафаев***

**Абстракт.** Знаменитое произведение «Анвар ат-Танзиль ва Асрар ат-Та'виль», известное как тафсир Бейзави, преподавалось как учебник в медресе. Особенно в османский период оно читалось и обсуждалось в присутствии султана под названием «уроки при дворе». Как следует из названия, это произведение было написано Абу Саидом Насир ад-Дином Абдуллой ибн Умаром аль-Бейзави аш-Ширази (х. 685/1286 или х. 691/1291). В своём тафсире муфассир стремился объединить методы дироят (рационального) и риваят (передаточного) толкования. Так как Насир ад-Дин Бейзави по мазхабу был шафиитом, а по акиде ашаритом, его богословские взгляды можно проследить в определённых темах, особенно в каламических вопросах. Кроме того, в данном произведении при передаче хадисов, являющихся отражением методов и стилей ривайи и тафсира, наряду с достоверными (сахих) хадисами приводятся также слабые и вымышленные (мауду‘) хадисы. Это показывает, что среди передатчиков некоторых хадисов встречаются слабые или недостоверные передатчики, а также передаются риваяты, которые впоследствии были доказаны как вымышленные в научных источниках. Что касается метода передачи хадисов у Бейзави, то муфассир часто передаёт напрямую от сподвижников и Пророка (с.а.в.), не указывая полную цепочку передатчиков. Это затрудняет оценку передатчиков с точки зрения джарх ва та'диль (критики и подтверждения надёжности). В целом, количество слабых и вымышленных хадисов в тафсире Бейзави достигает ста семнадцати. В данной статье приводятся двадцать два

* Азербайджанский институт теологии, старший преподаватель кафедры языков и общественных наук; Баку, Азербайджан
E-mail: anvarmustafayev@ait.edu.az
https://orcid.org/0000-0001-8196-1337
**Цитировать статью:** Мустафаев, А. [2025]. ПРИМЕРЫ (ВЫМЫШЛЕННЫХ) ХАДИСОВ ПО ТЕМЕ В ПРОИЗВЕДЕНИИ «АНВАР АТ-ТАНЗИЛЬ ВА АСРАР АТ-ТА'ВИЛЬ». *Журнал «Metafizika», 8(4),* с.14-52. https://doi.org/10.33864/2617-751X.2025.v8.i5.14-52

**История статьи:**
*Статья поступила в редакцию: 19.05.2025*
*Отправлена на доработку: 16.06.2025*
*Принята для печати: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

примера таких хадисов. Эти примеры охватывают суры аль-Фатиха, аль-Бакара, Али Имран *и* ан-Ниса. Что касается метода изучения вымышленных хадисов в тафсире Бейзави, то проводилось сравнение с тафсирами таких учёных, как Замахшари (х. 538/1143), Саляби (х. 437/1046), Абу Суд (х. 982/1575), Хатыб аш-Ширбини (х. 977/1570) и др., чтобы установить, имеются ли подобные хадисы в их трудах. Особенно обращает на себя внимание то, что Бейзави дословно цитирует хадисы о достоинствах сур из произведения «Аль-Кашшаф» Замахшари (х. 538/1143), как по иснаду, так и по тексту. Также привлечение цитат из трудов таких известных учёных, писавших о вымышленных хадисах, как Абу аль-Фарадж Абд ар-Рахман ибн Али Ибн аль-Джаузи (х. 597/1201), Сагани (х. 650/1252), Ибн Таймия (х. 728/1328), Суюти (х. 911/1505), Фаттани (х. 986/1578), Али аль-Кари (х. 1014/1605), а также аль-Мунави (х. 1031/1622), написавшего тахридж к тафсиру Бейзави, способствует глубокому изучению данной темы. В заключение, несмотря на научную и литературную ценность «Анвар ат-Танзиль ва Асрар ат-Та'виль», необходимо внимательно рассматривать хадисы, используемые в тафсире, с точки зрения надёжности источников, поскольку некоторые из них являются слабыми и вымышленными. Поэтому при изучении данного тафсира важно проводить сравнение с принципами науки о хадисах и достоверными хадисными источниками.

**Ключевые слова:** Бейзави, «Анвар ат-танзиль», Коран, Подделка, Хадис

**UOT:** 811.411.21.
**KBT:** 81.1
**MJ №** 299
10.33864/2617-751X.2025.v8.i4.14-52

# "ƏNVAR ƏT–TƏNZİL VƏ ƏSRAR ƏT–TƏVİL" ƏSƏRİNDƏ MÖVZU (UYDURMA) HƏDİSLƏRDƏN NÜMUNƏLƏR

**Ənvər Mustafayev***

**Abstrakt.** Beyzavi təfsiri kimi tanınan məşhur "Ənvar ət-Tənzil və Əsrar Ət-Təvil" əsəri mədrəsələrdə dərs kitabı kimi tədris edilmişdir. Xüsusi ilə Osmanlı dövründə "hüzur dərsləri" adı altında padişahın hüzurunda oxudulmuş və müzakirə edilmişdir. Adından da bilindiyi kimi əsər Əbu Səid Nasirəddin Abdullah İbn Ömər əl-Beyzavi əş-Şirazi (h.685/ 1286 və ya h. 691/ 1291) tərəfindən yazılmışdır. Müfəssir əsərdə dirayət təfsiri ilə rəvayət təfsir metodunu birləşdirməyə çalışmışdır. Nasirəddin Beyzavi məzhəb olaraq, şafi, əqidə olaraq, əşari olduğu üçün onun bu əqidə düşüncələrini müəyyən mövzularda, xüsusi ilə kəlami mövzularda görmək mümkündür. Bundan başqa əsərdə rəvayət, təfsir metodu və üslubunun izlərindən olan hədislərin nəql edilməsində səhih hədislərlə yanaşı, mövzu (uydurma) və zəif hədislərə də yer verilmişdir. Bu da əsərdə hədislərin isnadında zəif və ya etibarsız olan ravilərin olduğunu, eləcə də sonradan uydurulduğu elmi qaynaqlarda sübut olunan rəvayətlərin nəqli ilə özünü göstərir. Beyzavinin hədisləri nəql etmə metoduna gəlincə müfəssir ravilərin tam sənədini qeyd etmədən səhabə və Peyğəmbər (s.a)- dən bir başa rəvayət nəql edir. Bu da hədis nəql edən ravilərin cərh və tədil baxımından dəyərləndirilməsinə mane olur. Ümumiyyətlə, Beyzavi təfsirində uydurma və zəif hədislərin sayı yüz on yeddiyə çatır. Bu məqalədə isə uydurma və zəif hədislərdən ibarət iyirmi iki nümunə nəql edilmişdir. Bu nümunələr "Fatiha", "Bəqərə", "Ali -İmran" və "Nisa" surələrini ehtiva edir. Beyzavi təfsirindəki mövzu hədislərin tədqiqi metoduna gəlincə isə Zəməxşəri (h. 538/ 1143), Saləbi (h. 437/ 1046), Əbu Suud (h.982/ 1575), Xətib əş-Şirbini (h. 977/1570) və. s kimi təfsirçi alimlərin əsərlərində bu kimi hədislərin olub-olmaması müqayisə edilmişdir. Xüsusi ilə də Beyzavinin surələrin fəzilətləri

* Azərbaycan İlahiyyat İnstitutu, Dillər və ictimai fənlər kafedrasının baş müəllimi; Bakı, Azərbaycan
E-mail: anvarmustafayev@ait.edu.az
https://orcid.org/0000-0001-8196-1337
**Məqaləyə istinad:** Mustafayev, Ə. [2025] "ƏNVAR ƏT–TƏNZİL VƏ ƏSRAR ƏT–TƏVİL" ƏSƏRİNDƏ MÖVZU (UYDURMA) HƏDİSLƏRDƏN NÜMUNƏLƏR. *"Metafizika" jurnalı, 8*(4), səh.14-52.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.14-52

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 19.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 16.06.2025*
*Çapa qəbul edilmişdir: 31.07.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

ilə bağlı hədislərin sənəd və mətn olaraq Zəməxşərinin (h. 538/1143) "Əl-Kəşşaf" əsərindən olduğu kimi nəql edilməsi diqqəti cəlb edir. Bundan başqa mövzu hədislərlə bağlı əsərlər yazan Əbu-l-Fərəc Abdurrahman İbn Əli İbnu-l-Cövzi (h. 597/1201), Sağani (h. 650/1252), İbn Teymiyyə (h. 728/1328), Suyuti (h. 911/1505), Fəttəni (h. 986/1578),Əli Qarini (h. 1014/1605), eləcə də Beyzavi təfsirinə təxric əsəri yazan əl-Münavi (h. 1031/1622) kimi məşhur alimlərin əsərlərinə müraciət edilərək sitatlar gətirilməsi bu tədqiqatın dərindən öyrənilməsinə köməklik edir. Nəticə etibarı ilə "Ənvar ət-Tənzil və Əsrar ət-Təvil" əsərinin elmi və ədəbi dəyərinə baxmayaraq, təfsirdə istifadə edilən bəzi hədislərin mənbə baxımından zəif və uydurma olduğu diqqətlə nəzərdən keçirilməlidir. Bu səbəbdən, bu təfsiri araşdırarkən hədis elminin prinsipləri və mötəbər hədis mənbələri ilə müqayisə aparmaq vacibdir.

**Açar sözlər:** Beyzavi, "Ənvar ət-Tənzil", Quran, Mövzu, Hədis

## 1.Giriş

Beyzavi təfsiri kimi məşhur olan "Ənvar ət-Tənzil və Əsrar ət-Təvil" əsəri Əbu Səid Nasirəddin Abdullah İbn Ömər əl-Beyzavi əş-Şirazi tərəfindən yazılmışdır.Müfəssirin Şiraz yaxınlığındakı Beyza qəsəbəsində doğulduğu və h.685/ 1286 və ya h. 691/ 1291-ci illərədə Təbrizdə vəfat etdiyi nəql edilir [Çələbi, 1971, I/ 86; Subki, Məhəmməd, Məhəmməd, 1964, VIII/ 157]. Məzhəb olaraq şafi, əqidə olaraq əşari olan Beyzavi bir çox islami elmlərdə əsərlər yazmışdır. Ancaq o, məşhurluq zirvəsinə "Ənvar ət-Tənzil və Əsrar ət-Təvil" adlı təfsir əsəri ilə çatmışdır. Əsər öz yığcamlığı və ecazkarlığı ilə seçilir. Dirayət təfsiri kimi məşhur olan bu əsərdə rəvayət təfsirinə də yer verilmişdir [Hacı, 2013, 153-164].

Dərin elmi biliyə sahib olan müfəssir əsərdə ərəb dili, bəlağat və dil incəlikləri, eləcə də kəlam, fiqh, fiqh üsulu, qiraət və.s kimi islami elmlərlə bağlı mövzulara da toxunmuşdur. Ancaq mövzuları qısa və yığcam şəkildə nəql etdiyi üçün bir çox alim tərəfindən tənqid edilmişdir [Arıcı, 2017, 358]. Əsər daha çox əşari və maturudi məzhəbinə mənsub olanlar arasında oxunmuş və oxudulmuşdur [Mustafayev, 2019, 131]. Xüsusi ilə bu əsər Osmanlı dövründə daha çox mütailə edilir və qiraət olunurdu. Belə ki, 1759-cu ildən başlayaraq sarayda, padışahın hüzurunda alimlərlə elmi müzakirələr fonunda "Ramazan" ayında "huzur dərsləri" adı altında oxudulurdu [İpşirli, 1998, XVIII/ 441-444].

Bilindiyi kimi təfsir- hədis əlaqələri Quranın endiyi ilk ayələrdən mövcuddur. Belə ki, Qurani- Kərim ayələrini bizə çatdıran, təbliğ edən və bu ayələri bizə izah edən ilk müfəssir də Peyğəmbər Məhəmməd (s.a) olmuşdur. Qurani- Kərimi hər yönüylə anlayan Peyğəmbər (s.a) bəzi ayələrə açıqlamalar və izahlar vermişdir. Bu baxımdan demək olar ki, bütün təfsir kitablarında hədislərin nəql edildiyinin şahidi oluruq.

Nasirəddin Beyzavi də məşhur "Ənvar ət-Tənzil və Əsrar ət-Təvil" adlı təfsir əsərində də hədislərdən sitatlar nəql etmişdir. Bu hədislər arasında səhih hədislər olduğu kimi zəif və mövzu (uydurma) hədislər də vardır. Xüsusi ilə bir çox təfsir kitablarında olduğu kimi Beyzavi də mövzu hədislərdən hesab edilən Quranın fəzilətlərinə dair hədisləri hər surənin axırında nəql etmişdir.

Tədqiqatın metoduna gəlincə isə mövzunun genişliyni nəzərə alaraq, Beyzavi təfsirində yalnız "Fatiha", "Bəqərə", Ali-İmran" və "Nisa" surələrində müfəssirin nəql etdiyi mövzu (uydurma) hədislərin bir neçəsinə toxunulacaq. Bu hədisləri təhlil edərkən Beyzavi ilə yanaşı digər təfsirçilərin də əsərlərində bu növdən olan hədislərə müraciət edib – etmədiyi tədqiq edilir. Həmçinin, hədis alimlərinin qeyd edilən hədislərlə bağlı fikir- və düşüncələrinə toxunulur. Belə ki, mövzu hədislərlə bağlı əsərlər yazan Əbu-l-Fərəc Abdurrahman İbn Əli İbnu-l-Cövzi (h. 597/1201), Sağani (h. 650/1252), İbn Teymiyyə (h.

728/1328), Suyuti (h. 911/1505), Fəttəni (h. 986/1578), Əli Qarini (h. 1014/1605) və s. kimi alimlərin əsərlərinə, eləcə də əl-Münavinin (h. 1031/1622) Beyzavi təfsirindəki hədislərlə bağlı təxric əsərinə müraciət edilmişdir. Bundan başqa hədis terminləri ilə bağlı mövzularda Türkiyə Diyanət Vakfı İslam Ansiklopediyası kimi çox cildli kitablara da isnad edilmişdir. Həmçinin, alimlərin fikirlərini müqayisə etmək üçün zəngin kitab bazasına malik “şamilə” proqramından istifadə edilmişdir.

Düşünürəm ki, hədis elmi, mövzu hədislər (uydurma), bu hədislərlə bağlı mütəxəssislərin fikir və düşüncələri, eləcə də Quranın fəzilətlərinə dair rəvayətlər kimi mövzular tədqiqatın dərindən öyrənilməsinə kömək edəcəkdir.

**2.Hədis elminin növləri və mənbələri**

Həzrət Peyğəmbərin söz, davranış (fel) və təqrirlərinə aid olan xəbərlərə hədis deyilməkdədir.

“İlmur-rivayə”, “İlmul-əxbar” və “İlmul-əsar” adlarını daşıyan hədis elmi hədisləri təsbit, nəql və anlamağa istiqamətlənən bir elmdir. Hədisin elm kimi ortaya çıxması h. II/ VIII əsrə təsadüf edir [Cirit, Səlimli, 2016, 12-13]. Hədis elmi “Rivayətul-hədis” və “Dirayətul-hədis” olmaqla iki əsas elm sahəsinə bölünür.

“Rivayətul-hədis” elmi Peyğəmbərə, səhabəyə və tabiuna isnad edilən söz, davranış, təqrir və sifətlərdən ibarət olan yazılı rəvayətin həssas və dəqiq şəkildə nəql edilməsini mövzu olaraq işləyən elm sahəsidir. Bu elmlə hədislərin nəqli, bu nəqlin icrasında müxtəlif yollar, mətn və sənədlərdəki ləfzlərin doğru şəkildə zəbti (qorunması), adların oxunuş şəklinin təsbiti kimi xüsuslar üzərində durulur. Burada hədislərdəki hər hansı bir mətn problemlərinə, ravilərin müxtəlif məsələlərinə toxunulmur [Cirit, Səlimli, 2016, 12-13]. Bu elm sahəsinə aid olan ədəbiyyata “səhifə”, “cüz”, “cami”, “müsnəd”, “mucəm”, “müvəttə”, “müsənnəf”, “sünən”, “müstədrək” və “müstəxrəc” kimi hədis kitablarının adlarını çəkmək olar. Hədisi sənədli olaraq ilk nəql edənə çatdıran bu kimi əsərlər əsl mənbələr hesab edilir [Akın, 2015, 3; Cirit, Səlimli, 2016, 12-13].

Əsas mənbələrdən hesab edilməyən qeyri- əsl (masdaru-ğayri-əsliyyə) mənbələrə gəlincə isə onlar “ətraf”, “zəvaid”, “miftah”, “tərğib- tərhib”, “təxric” kimi fehrist mahiyyətli əsərlərlə hədisləri və ya sadəcə xalq dilində məşhur olan hədisləri tədqiq edən və cərh və tədil baxımından hədis dəyərləndirmələri olan kitablardır [Akın, 2015, 5].

Beləliklə, rivayətu- l- hədis dedikdə sadəcə hədsilərin kəlimə və sənəd olaraq, xətasız şəkildə nəqli, qeyri -əsl mənbələr dedikdə isə fehrist formatlı olmaqla yanaşı, nəql edilən hədislərin cərh və tədil baxımından tədqiqi nəzərdə tutulur. Bu da hədislərin mətn və ravi olaraq dərindən öyrənilməsinə, eləcə də hədislərin səhih, zəif və ya uydurma olduğunu tədqiq etməyə kömək edir.

## 3.Uydurma hədislər (Mövzu hədislər)

"Məvduun" (مَوْضُوعٌ) sözü "vadaa" (وَضَعَ) felindən düzələrək ismi məful qəlibindədir. "Vadaa" (وَضَعَ) feli *"yerə atmaq", "vurmaq", "döyüşmək", "icad etmək" "uydurmaq"* və.s kimi məsdər mənaları ehtiva edir [İbn Manzur, 1994, VIII/ 396-398]. Hədisçilərə görə isə "mövzu" sözü yalandan demək və ya iftira atmaq kimi mənaları ehtiva edir ki, bu da hz. Peyğəmbər adından uydurulan söz, eləcə də Peyğəmbər (s.a) -ə aid olmayan sözlərin ona isnad edilməsi ilə özünü göstərir [Kandemir, DİA, 2004, XXIX/ 493-496; Akın, 2015, 22].

Mövzu hədislərlərin dərəcə və dəyəri ilə bağlı alimlər müxtəlif fikir bildirmişlər. Belə ki, İbn Salah (h. 643/ 1245) "mövzu" hədisləri zəif hədislərin ən aşağı dərəcəsi kimi qiymətləndirmişdir [Akın, 2015, 22]. Ancaq hədis alimlərindən olan Əmir Sənani (h. 1182/1768) bu növdən olan hədisləri zəif hədis kimi qiymətləndirənlərə etiraz edərək Peyğəmbər (s.a) adına uydurulan sözlərin həqiqi hədislərlə heç bir əlaqəsinin olmadığını bildirmişdir.

Hədis alimləri tərəfindən mövzu (uydurma) sözü fərqli sözlərlə də tərif edilmişdir. Belə ki, alimlər mövzu (uydurma) olan rəvayətə (بَاطِلٌ) "batil" və ya "masnu" (مَصْنُوعٌ), uydurma hədisləri nəql edən şəxsələri də "vazza" kimi adlarla nəql etmişlər [Kandemir, DİA, 2004, XXIX/ 493-496].

Mövzu hədislərin ortaya çıxmasına gəlincə isə bunun bir neçə səbəbi vardır. Belə ki, İslamın geniş ölkə və əraziləri əhatə etməsi ilə yeni fəlsəfi və kəlami fikirlərin ortaya çıxarmışdır. Bu səbəbdən batil firqələr və məzhəblər öz fikir və düşüncələrini təsdiqləmək üçün və ya hədislərin bütünlüklə tədqiq edilib yazıya nəql edilməməsini fürsət bilərək ehtiyac hiss etdikləri müəyyən mövzularla bağlı "mövzu" (uydurma) hədislərə yer vermişlər. Bundan başqa insanları Allaha itaətə sövq etmək və ya onların Qurandan uzaqlaşmasının qarşısını almaq üçün bu kimi hədisləri nəql etmişlər [Kandemir, DİA, 2004, XXIX / 493-496; Akın, 2015, 20].

Mövzu hədislərlə bağlı ilk müstəqil əsər hicri beşinci əsrdə İbn əl – Kəysərani (h. 507/1113) tərəfindən qələmə alınmışdır. O, bu hədislərlə bağlı "*Təzkiratu – l – məvduat*", "*Əz- zahirə fi – l - əhadisi – d – daifə və - l – məvdua*" adlı iki əsər ərsəyə gətirmişdir. Əl – Kəysərani "*Təzkiratu – l – məvduat"* adlı əsərini yazarkən İbn Hibbanın "Kitabu – l – məcruhin" adlı əsərinə müraciət etmişdir. O, qeyd edilən əsərdə sənədlərindəki zəif və yalançı raviləri tənqid edərək 1113 rəvayəti cəm etmişdir. Müəllif "*Əz- zahirə fi – l - əhadisi – d – daifə və - l – məvdua"* adlı əsərini qələmə alarkən isə İbn Adinin (h. 365/976) "*əl – Kamil"* əsərindən istifadə etmişdir. O, bu əsərində İbn Adinin əsərində tənqid etdiyi rəvayətləri cəm etmişdir [Yücel, 2016, 121-122].

Bundan başqa Əbu-l-Fərəc Abdurrahman İbn Əli İbnu-l-Cövzinin (h. 597/1201) "Kitabu-l-Məvduat", Sağaninin (h. 650/1252) və İbn Teymiyyənin

(h. 728/1328) “Risalə fi-l-Əhadisi-l-məvduat”, Suyutinin (h. 911/1505) “əl – Ləaliu – l – masnua fi – l - əhadisi -l – məvduat” Fəttənin (h. 986/1578) “Təzkiratu -l – məvduat”, Əli Qarinin (h. 1014/ 1605) “Məvduat” adlı əsərləri mövzu hədislərin bu günədək tanınmasında önəmli rol oynamışdır [Yazıcı, 2021, 159].

Həmçinin, mövzu ilə bağlı Abdurrauf İbn Əli Abdullah İbn Sıbğatullah əl – Mirsadinin (h.1288/1873) “*Feyzu -l – Bari Fi Təxrici Əhadisi Beyzavi”* və Himmətzadə Məhəmməd ibn həsən əd – Diməşqinin (h. 1175/1760) “ *Tuhfətu -r – Ravi Fi Təxrici Əhadisi Beyzavi”* adlı təxric əsərlərinin də adlarını çəkmək olar [Akın, 2015, 107].

Bundan başqa yaxın keçmişdə yazılan, müəllifi Galip Akın olan “*Beyzavi Tefsirinde Uydurma Hadisler ve Tahlili”* adlı magistr işi də mövzu ilə bağlı əsərlərdən hesab edilir.

Nəticə etibarı ilə bu kimi əsərlərin yazılması ravilərin səhhət baxımından zəif olmasının, eləcə də “mövzu” hədislərin tanınmasında önəmli rol yonamışdır.

Ümumiyyətlə, təfsir əsərlərinə diqqət etdikdə dirayət təfsir metodundan istifadə edən, mövzu (uydurma) hədisləri sənədsiz və mərfu olaraq nəql edən alimlərdən Carullah əz-Zəməxşəri (h.538/ m.1148), Fəxrəddin Razi (h. 606/m.1209) Nasirəddin Beyzavi (h. 685/1286) və Əbu Suud (h. 982 m.1574) kimi müfəssirlərin adlarını çəkmək olar [Akpınar, 2011, 191].

Beyzavinin təfsir əsərinə nəzər yetirdikdə aydın olur ki, müfəssir hədisləri rəvayət edərkən rəvayət zəncirini qeyd etməyərək sənədsiz nəql etmişdir. O, bu kimi hədisləri nəql edərkən yalnız səhabə adını qeyd edir. Buna misal olaraq, müfəssirin “bəsmələ”- nin “Fatiha” surəsindən olması ilə bağlı Əbu Hureyrə və Ümmu Sələmədən nəql etdiyi hədisləri vermək olar [Beyzâvî, 1971, I/ 5]. Bundan başqa o, surələrin fəzilətlərinə dair hədislərdən sitatlar gətirərkən Əbul Qasım Mahmud ibn Ömər ibn Məhəmməd ibn Ömər əz-Zəməxşərinin (h.538/ m.1148) [Kılıç, 2015, 44] “əl-Kəşşaf” adlı təfsir əsərində olduğu kimi eyni rəvayətlərlə zəif və uydurma hədislərə yer vermişdir [Akın, 2015, 20]. Həmçinin, əsərdə bu kimi hədislərin Übey İbn Kab tərəfindən nəql edildiyi müşahidə edilir.

Ümumiyyətlə, Beyzavi təfsirində mövzu olan və ya az da olsa zəif olduqları bilinən rəvayətlərin sayı yüz on yeddi [Akın, 2015, 107], bu məqalədə isə “Fatiha”, “Bəqərə”, “Ali-İmran” və “Nisa” surələri tərkibində iyirmi iki hədis və rəvayət nəql edilmişdir.

Beyzavi təfsiri ədəbi və elmi baxımdan seçilsə də tərkibində mövzu hədislərin olması bir çox alim tərəfindən xoş qarşılanmamışdır. Bu da müfəssirin bu mövzuda tənqid edilməsinə gətirib çıxarmışdır.

**4.Beyzavi təfsirindəki mövzu hədislərə alimlərin mövqeyi**

Qeyd edildiyi kimi Beyzavinin Ənvar ət-Tənzil və Əsrar ət-təvil adlı təfsir əsəri dərs kitabı kimi tədris olunmuş, "huzur dərsləri" adı altında oxudulmuşdur. Əsər dirayət təfsiri kimi tanınsa da hədislərin də nəql edilməsi ilə rəvayət təfsir üslubunu xarakterizə etmişdir. Bütün bunlarla yanaşı, əsər tənqidləri də özündə cəmələşdirmişdir. Belə ki, əsərdə nəql olunan hədislər arasında mövzu və az da olsa zəif hədislər də mövcuddur. Bu baxımdan bəzi alimlər bu hədislər barədə müxtəlif fikirlər bildimişlər. Belə ki, Katib Çələbi Beyzavinin əsərində mövzu və ya zəif hədisləri nəql etməsi ilə bağlı onun "qəlb gözü açılmış və rəbbinin ilhamlarına agah olan alim olduğunu, eləcə də onun "cərh və tadil" kimi hədislərin səhhət baxımından qiymətləndirməsinə ehtiyac olmadığını" – bildirir [Çelebi, I/ 188].

Nəticə etibarı ilə Katib Çələbinin Beyzavini bu şəkildə müdafiə etməsi hədis üsulu baxımından qəbul edilməzdir. Həmçinin, Beyzavinin təfsirində Quranın fəzilətlərinə dair uydurma hədislərin olması və alimin bu kimi hədisləri Zəməxşərinin "əl-Kəşşaf" əsərindən olduğu kimi nəql etməsi bir çox alim tərəfindən böyük bir xəta kimi görülmüşdür [Akın, 2015, 20].

Beyzavinin "Ənvar ət-Tənzil" və Zəməxşərinin "əl-Kəşşaf" əsərlərindən "Ruhu-l-Bəyan" adlı təsəvvüf təfsirində mənbə kimi istifadə edən İsmayıl Haqqı Bursevi (h. 1137/1725) [Namlı, 2008, DİA, XXXV/ 211-213] Beyzavini tənqid edənlərə belə cavab verir: "*Beyzavi təfsirində Quranın fəzilətləri iə bağlı hədislər zəif və ya mövzu ola da bilər olmaya da bilər. O, zahidlərdən birinin bu hədislərlə bağlı fikirini nəql edərək bildirir ki, bu hədislər mövzu olsa da insanların Qurandan uzaqlaşmaması üçün nəql edilmişdir. Ona Peyğəmbərin "Kim bilə - bilə mənə yalan söz isnad edərsə cəhənnəmdəki yerini hazırlasın" - hədisini xatırlatdıqda "mən Peyğəmbərin əleyhinə deyil, leyhinə yalan dedim" – deyərək, özünü müdafiə edir*" [Akın, 2015, 20].

Qeyd edilməlidir ki, İsmayıl Haqqı Bursevi də əsərində zəif, münkər və mövzu hədislərə yer verdiyi üçün hədisçi alim Abdulfəttah Əbu Guddə tərəfindən tənqid edilmiş və onun hədis elminə aşina olmadığını bildirmişdir [Namlı, 2008, DİA, XXXV/ 211 -213].

Beyzavi təfsirindəki hədislərlə bağlı "əl-Fəthu- s- Səmavi bi Təxrici" adlı təxric əsərini qələmə alan Zeynuddin Məhəmməd Abdurrauf əl – Haddadi əl – Münavi (h. 1031/1622) qeyd edilən əsərin girişində bildirir: "Zəməxşərinin "əl-Kəşşaf" əsərində hədislərin təxric edildiyinin şahidi oldum. Ancaq Beyzavinin təfsir əsərində nəql olunun hədislərin təxric edilməsi ilə bağlı hər hansı bir əsərə rast gəlmədim. Onun təfsir əsərində səhih hədislərlə yanaşı, zəif, uydurma, sənədsiz və isnadsız əsli olmayan rəvayətlər, hətta doğruluğu bilinməyən xəbər və rəvəyətlər də mövcuddur. Bu baxımdan bütün işlərimə baxmayaraq adını "*əl – Fəthu – s – Səmavi bi təxrici əhadisi -l – Qadi -l –*

*Beydavi”* (الْفَتْحُ السَّمَاوِيّ بِتَخْرِيجِ أَحَادِيثِ الْقَاضِي الْبَيْضَاوِيِّ) qoyduğum əsəri qələmə aldım.

*“Təxric”*- Təfsir, fiqh, kəlam və hədis kitablarının bir qismində keçən, ancaq mənbəsi qeyd edilməyən rəvayətləri səhhət dərəcələrini təsbit etmək və bəzi rəvayətlərin kimə aid olduğunu aydınlaşdırmaq məqsədi ilə yazılan əsərlərdir [Cirit, Səlimli, 2016, 135; Akın, 2015, 7].

Nəticə etibarı ilə Beyzavi təfsirində mövzu və ya zəif hədislərin olması alimlər tərəfindən tənqidlə qarşılanmışdır. Xüsusi ilə insanları Qurana sövq etmək üçün də olsa bu kimi hədislərin, eləcə də Quranın Fəzilətləri ilə bağlı rəvayətlərin Peyğəmbər (s.a) adına söylənməsi böyük bir iftira və xəta hesab edilir.

**5.Beyzavi təfsirində quranın fəzilətlərinə dair rəvayətlər**

Nasirəddin Beyzavi əsərində hər surənin sonunda həmin surənin fərqli saylarda oxunması və bu oxunuş nəticəsində verilən savabla bağlı hədis və ya rəvayətlər nəql edir. Əsasən, bu kimi rəvayətlər Übey İbn Kabdan nəql edilir. Quranın fəzilətləri ilə bağlı rəvayətləri Bəsrənin yaxınlığındakı Abadanlı kəndindən olan bir şəxs uydurmuşdur. Həmin şəxs bu hədisləri uydurduğunu da etiraf etmişdir. Bu hədisçilər tərəfindən də bilinən məsələdir” [Akın, 2015, 22-23].

Buxari və “Sünən” müəlliflərindən olan Əbu Davud aşağıdakı rəvayətləri nəql edirlər:

أَنَّ النَّبِيَّ عَلَيّهِ السَّلَام قَالَ لأَبِي سَعِيد بن الْمُعَلَّى: أَلا أُعَلِّمُكَ أَعْظَمُ سُورَة فِي الْقُرآنِ، الحَدِيثُ وَفِيهِ: (الْحَمْدُ لِلهِ رَبِّ الْعَالَمِينَ) هِيَ سَبْع الْمَثَانِي وَ الْقُرآنِ الْعَظِيم الَّذِي أُتِيتهُ.

“*Hz. Peyğəmbər (S.a) Əbu Səid İbn Muallaya :Quranda ən böyük surəni sənə öyrədimmi? Bu “Fatiha” surəsidir ki, o, səbu – ul – Məsanidir və mənə verilən uca Qurandır”* [Buxari, Daru-l-İbn Kəsir, 1987, IV,/1623/ № 4204; Əbu Davud, II / 71/ № 1458].

Hz. Peyğəmbərin bu hədisi eyni mətn və fərqli kəlimə və ləfizlərlə bir dəfə Übey İbn Kaba, bir dəfə də Əbi Səid İbn Muallaya dediyi nəql edilir [Münavi, 2010, I/ 118; Akın, 2015, 23].

Uydurma hədislərlə bağlı əsər yazan alimlərdən olan Əbu-l-Fərəc Abdurrahman İbn Əli İbnu-l-Cövzi (h. 597/1201) “Kitabu-l-Məvduat” əsərində Übey İbn Kab tərəfindən surələrin fəzilətlərinə aid qeyd etdiyi bir çox hədisləri nəql etdikdən sonra [İbn əl-Cəvzi, 1966/ 242] bu hədislərin uydurma olduğunu sübut etməyə çalışmışdır. Bu hədislərdən biri də aşağıdakı kimidir:

سمعت محمود بن غيلان يقول سمعت مؤملا يقول حدثنى شيخ بفضائل سور القرآن الذى يروى عن أبى بن كعب، فقلت للشيخ

لمداين وهو حى فصرت إليه فقلت من حدثك ؟ فقال حدثنى شيخ بواسط وهو حى فصرت من حدثك؟ فقال حدثنى رجل

لبصرة فصرت إليه فقال حدثنى شيخ بعبادان فصرت إليه، فأخذ بيدى فأدخلني بيتا فإذا فيه قوم من إليه، فقال حدثنى شيخ
شيخ من حدثك ؟ فقال لم يحدثنى أحد ولكنا رأينا الناس قد رغبوا من المتصوفة ومعهم شيخ، فقال: هذا الشيخ حدثنى، فقلت: القرآن فوضعنا لهم هذا الحديث ليصرفوا وجوههم إلى القرآن.

Qeyd edilən rəvayət qısaca belədir:

Übey İbn Kabdan Quranın (surə-surə) fəzilətləri ilə bağlı nəql edilən rəvayətlər haqqında Məhəmməd İbn Ğaylan vəsitəsi ilə əl-Muəmməldən bunları qeyd edir: "*Şeyxə dedim ki, sənə bu rəvayəti kim nəql etdi? O da həyatda olan Mədainli biri nəql etdi. Mədainli Vasıtta yaşayan birindən, Vasıtta yaşayan Bəsrədə yaşayan birindən, Bəsrədə yaşayan da Abbadanda yaşayan bir şeyx nəql etdi- deyə, bildirdi. Abbadanda gəldim və şeyxlə qaşılaşdım, əlimdən tutdu və məni bir evə apardı. Gördük ki, orada bir qrup sufi şeyxin ətrafına toplaşıb. O, bizə bu şeyx nəql etdi, dedi. Mən: Ey Şeyx! Sənə kim bu rəvayəti nəql etdi- deyə, soruşduqda "mənə heç kim nəql etmədi. Gördük ki, insanlar Qurandan üz çevirirlər, ondan uzaqlaşırlar. Biz də Quranın fəzilətləri ilə bağlı hədislər uydurduq ki, onları Qurana istiqamətləndirək*"" [İbn əl-Cəvzi, 1966, I/ 241].

İbn əl-Cövzi əlavə edərək qeyd edir ki, fərqli ləfz və kəlimələrlə rəvayət edilən və uydurulduğu da sübut olunan bu kimi rəvayətlər və sözlər Übey İbn Kabın rəvayət etdiyi mövzu hədislərdir. Həmçinin, o, bu fikirlərini təsdiqləmək üçün məşhur hədis alimlərindən olan Abdullah İbn əl-Mübarəkin (h.181/797) [Küçük, DİA, 1988, I/ 122-124] "Übey İbn Kab haqqında nəql etdiyi qeydlərə toxunur. Belə ki, Abdullah İbn əl-Mübarək bildirir ki, "Übey İbn Kaba isnad edilən Quranın fəzilətləri ilə bağlı rəvayətləri zındıqların uydurduqlarını düşünürəm" [İbn əl-Cövzi, 1966, I/ 241].

İbn əl-Cövzi qeyd edilən əsərində Ubey İbn Kaba isnad edilən Quranın fəzilərləri ilə bağlı rəvayətlərin mövzu olduğunu sübut etmək üçün fərqli iki rəvayəti nəql etmişdir. Ancaq rəvayətlərin geniş olduğunu nəzərə alaraq bir rəvayətin qeyd edilməsinin mövzunun aydın olması üçün kifəyat edəcəyini düşünürəm. Rəvayət aşağıdakı kimidir:

يوسف بن الدخيل أحمد بن محمد العتيقي قال أنبأ محمد بن المظفر بن بكران قال أنبأ عبد الوهاب بن المبارك قال أنبأ أنبأ
قال حدثنا أبو جعفر محمد ابن عمرو العقيلى قال حدثنى على بن الحسن بن عامر قال حدثنا محمد بن بكار قال حدثنا بديع بن
حبان أبو الخليل قال حدثنا على بن زيد بن جدعان وعطاء ابن أبى ميمونة كلاهما عن زر بن حبيش ***عن أبى بن كعب*** قال: قال
ليها إلى آخر تا أبيُّ من قرأ فاتحة الكتاب أعطى من الاجر فذكر سورة سورة وثواب يا لى رسول لله صلى لله عليه وسلم"
القرآن".

*“Metafizika” Journal*
***2025, vol 8, issue 4, serial 32, pp.14-52***

Yuxarıdakı rəvayətin sənədindəki şəxsləri qeyd etmədən mətn hissəsinə nəzər yetirdikdə Ubey İbn Kab Hz. Peyğəmbərdən belə rəvayət edir: Hz. Peyğəmbər mənə ey Übey! Kim “Fatiha”-nı oxuyarsa, ona savab verilir dedi. Sonra surə- surə sayıb onlara veriləcək savabları Quranın sonuna qədər qeyd etdi [İbn əl-Cövzi, 1966, I/239].

İbn əl-Cövzi mövzu ilə bağlı digər rəvayətində isə “Fatiha”- dan başlayaraq, “Ali-İmran”, “Nisə”, “Maidə”, “Ənam”, “Araf”, “Ənfal”, “Yunus”, “Hud” və.s kimi surələrin oxunması ilə verilən fərqli savabları qeyd edir [İbn əl-Cövzi, 1966, I/ 239-240].

Bir çox hədis mütəxəssisinin Quranın fəzilətrləri ilə bağlı rəvayətləri tənqid etməsinə baxmayaraq Nasirəddin Beyzavi kimi Əbu İshaq Əhməd İbn İbrahim ən-Nisaburi əs-Saləbi (h. 437/1046) “*əl-Kəşfu və-l-Bəyan fi Təfsiri-l-Quran*” adlı əsərində, eləcə də onun metodunu izləyən Əbul Həsən Əli İbn əhməd İbn Məhəmməd İbn Əli əş-Şafi ən-Nisaburi əl-Vahidi (h. 468/1076) də “*əl-Vəciz fi Təfsiri-l-Kitəbi-l-Aziz*” adlı əsərində surələrin fəzilətləri ilə bağlı uydurma rəvayəti hər surədə qeyd etmişlər [İbn əl-Cəvzi, 1966, I/ 239-240].

İbn əl-Cəvzi Quranın fəzilətləri ilə bağlı hədis uyduranlardan birinin də Məysərə İbn Abdirribah (h. 328/940) olduğunu qeyd edir. Belə ki, çox güclü hafizəyə sahib olan hədis alimi Abdurrahman İbn Mehdi (h. 198/813-814) (Uğur, DİA, 1988, I/167-168) adlı bir şəxs Məysərə İbn Abdirribahdan: “Sənin bu surəni oxuyan, o surəni oxuyan kimi başlayan rəvayətlərin var. Sən bu rəvayətləri kimdən nəql edirəsən”– deyə, soruşduqda belə cavab verir: “İnsanları Qurana yönləndirmək üçün mən uydururam” [İbn əl-Cəvzi, 1966, I/ 241].

Nəticə etibarı ilə insanları Qurana təşviq etmək məqsədi ilə də olsa Peyğəmbər adına yalan isnad etmək doğru hesab edilmir. Necə ki, “*kim bilə - bilə mənə yalan söz isnad edərsə cəhənnəmdəki yerini hazırlasın*”- hədisi ( مَنْ كَذَبَ عَلَيَّ مُتَعَمِّداً فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ) [Əş-Şeybani, 1983, I/ 120; Ət-Tayalisi,1999, I, 268; Əd-Darimi, 2000, I/ 303-304] bu məslənin nə dərəcədə ciddi olduğunu göstərir. Bu baxımdan xəlifələrdən h. Ömər (h. 23/644), hz. Osman (h.35/656), hz. Əli (h. 40/661), səhabələrdən Əbu Hüreyrə (h. 58/678), Ammar ibn Yasir (h. 37/657), Əbu Said əl-Hudri (h. 74/693), Abdullah ibn Amr əl-As (h. 65/684), Ənəs İbn Malik və.s kimi hədis elmində məşhur olan şəxslər yuxarıda qeyd edilən hədisi əsasa alaraq, hədis nəqlində ehtiyatlı davranmışlar [İnan, 2023, 465-48].

Tədqiqatın daha da dərindən öyrənilməsi üçün “Ənvar ət-Tənzil və Əsrar ət-Təvil” əsərində “Fatiha”, “Bəqərə”, “Ali-İmran”, “Nisa” surələrindəki uydurma hesab edilən rəvayət və ya hədislərdən nümunələr verilərək təhlil ediləcəkdir.

**5.1.“Fatiha” surəsi**

Beyzavi Zəməxşəri kimi Übey İbn Kabdan nəqil edilən "Fatiha" surəsinin fəzilətləri ilə bağlı aşağıdakı rəvayəti nəql edir:

عَنْ أَبِي هُرَيْرَةَ رَضِيَ اللَّه عَنْهُ "أَنَّ رَسُلَ اللَّهِ صَلَّى الله عَلَيْهِ وَسَلَّمَ قَالَ لِأُبَيَّ : أَلَا أُخْبِرُكَ بِسُورَةٍ لَمْ يَنْزِلْ فِي التَّوْرَاةِ وَالْإِنْجِيلِ وَالْقُرْآنِ مِثْلُهَا". قَالَ: قُلْتُ بَلَى يَا رَسُولَ اللَّهِ. قَالَ: فَاتِحَةُ الْكِتَابِ إِنَّهَا السَّبْعُ الْمَثَانِي وَالْقُرْآنُ الْعَظِيمُ الَّذِي أُتِيتُهُ.

*Əbu Hüreyrə nəql edərək bildirir ki, Allah rəsulu sallallahu aleyhi vəsəlləm Übeyə dedi: "Sənə Tövratda, İncildə və Quranda bənzəri nazil olmayan bir surə haqqında xəbər verimmi?- dedi. O da bəli, ey Allahın rəsulu dedi. O da- O Fatihatu-l-kitabdır ki, o yeddi ayədir və mənə gələn əzəmətli Qurandır"- dedi* [Beyzavi, 1971, I/ 12; Beyzavi, Öztürk, 2017, I/ 30; Zəməxşəri, Əhməd Hicazi, 1998, I/ 126].

Bu rəvayətin də isnadında Übey İbn Kab olduğuna görə mövzu hədislərdən hesab edilir.

Beyzavi təfsirində "Fatiha" surəsi ilə bağlı ikinci hədis aşağıdakı kimidir:

عَن حُذَيْفَة بن الْيَمَان: أَنَّ النَّبِيَّ صَلَّى الله عَلَيْهِ وَسَلَّمَ قَالَ: إِن الْقَوْمَ يَبْعَثُ الله عَلَيْهِم الْعَذَاب حتما مقضيا فيقرأ صبي من صبيانهم في الكتاب (الحمد الله رب العالمين) فيسمعه الله تعالى فيرفع عنهم العذاب أربعين سنة.

Hüzeyfə İbn Yəmandən edilən rəvayətə görə; Nəbi sallallahu aleyhi və səlləm buyurdu ki: *Həqiqətən, bir qövmə Uca Allah mütləq bir əzab göndərsə, o qövmün uşaqlarından biri "Həmd aləmlərin Rəbbinə məxsusdur" (yəni Fatiha surəsini) oxuyarsa, Allah onun bu oxuyuşunu eşidərsə,onlardan qırx il əzabı uzaqlaşdırar"* [Beyzavi, 1971, I/12; Beyzavi, Öztürk, 2017, I/30; Zəməxşəri, Əhməd Hicazi, 1998, I/126].

Bu rəvayəti Beyzavi ilə yanaşı [Beyzavi, 1418, I/32], Zəməxşəri (h. 538/1143) [Zəməxşəri, Əhməd Hicazi, 1998, I/127], Saləbi (h. 437/1046) [Saləbi, 2002, I/90], Razi (h. 606/ 1210) [Razi, 1981, I/184], Xətib əş-Şirbini (h. 977/1570) [əş-Şirbini, 1285, I/14], eləcə də Əbu-s-Suud (h.982/1575) [Əbu-s-Suud, tarixsiz, I, 20] İsmail Haqqı əl-Bursəvi (h. 1137/1725) [Bursavi, tarixsiz, I/26] və.s kimi təfsirçi alimlər də əsərlərində qeyd edir [Akın, 2015, 29].

Qeyd olunan rəvayəti ilk olaraq təfsiriçi Saləbi əsərində nəql etmişdir. Saləbinin əsərində bu rəvayətin tam sənədi aşağıdakı kimidir:

أجبرنا أبو الحسن محمد بن القاسم أحمد حدثنا أبو إسحاق إبرهيم بن محمد بن أيوب حدثنا أبو عبد الله محمد بن صاحب حدثنا مأمون بن أحمد حدثنا أحمد بن عبد الله أبو معاوية الضرر عن أبي مالك الاشجاع عن ابن حمران عن حذيفة بن اليمان.

Hədis alimlərindən olan Zeynuddin əl-İraqi (h. 826/1423) bu rəvayətin sənədindəki Məmun İbn Əhməd əl-Hərəvi və Əhməd İbn Abdullah əl-Cüveybari adlı ravilər yalançı olduğunu və bu rəvayəti ikisindən birinin uydurduğunu qeyd edir [Zeylai, №9; 1414, I/30; Munavi, tarixsiz, I/119]. Həmçinin, Məhəmməd Əbu Şəhbə də "*əl-İsrailiyyat və-l-Məvduat fi Kutubi-t-*

*Təfsir*" adlı əsərində Übey İbn Kabla yanaşı, yuxarıda adları qeyd olunan ravilərin yalançı oladuğunu, eləcə də Zəməxşəri və Beyzavinin surələrin fəzilətlərinə dair nəql etdikləri rəvayətləri uydurma (mövzu) olduğunu bildirir [Akın, 2015, 28].

İbn Həcər əl-Əsqalani (h. 852/1448) Xətib əş-Şirbini (h. 977/1570) [əş-Şirbini, 1285, I/14], Acluni (h. 1162/1749) və.s kimi alimlər bu hədisin uydurma olduğunu nəql edirlər [Əsqalani, tarixsiz, 3; Acluni, 2001, I/221, № 672].

Abdullah İbn Abdurrahman əd-Darimi (h.255/869) "Əl-Müsnəd" əsərində Sabit İbn Aclan əl-Ənsarın nəql etdiyi rəvayətdə "Fatiha" surəsi Hikmət və ya Quran mənalarında qeyd edilir. Darimi Sabit İbn Aclan əl-Ənsarın zəif ravi olduğunu qeyd edərək rəvayətində zəif olduğunu nəql edir [Akın, 2015, 29].

Rəvayətin mətni aşağıdakı kimidir:

**حَدَّثَنَا مَرْوَانُ بْنُ مُحَمَّدٍ حَدَّثَنَا رِفْدَةُ الْغَسَّانِيُّ حَدَّثَنَا ثَابِتُ بْنُ الْعَجْلَانَ الْأَنْصَارِيُّ قَالَ: كَانَ يُقَالُ: إِنَّ اللَّهَ لَيُرِيدُ الْعَذَابَ بِأَهْلِ الْأَرْضِ، فَإِذَا سَمِعَ تَعْلِيمَ الصِّبْيَانِ الْحِكْمَةَ صَرَفَ ذَلِكَ عَنهُمْ. قَالَ مَرْوَانُ: يَعْنِي بِالْحِكْمَةِ الْقُرْآنَ.**

*Uca Allah yer üzündəki insanlara əza vermək istəsə, bir uşağın hikməti (Quranı) öyrəndiyini eşitsə, əzabını onların üzərindən götürər* [Münavi, 2010, I/119].

İbn Həcər və Zəhəbiyə görə bu rəvayətin sənədindəki Mərvan İbn Məhəmməd əl-Əsədi əd-Diməşqi (h. 210/826) siqa ravi hesab edilir.İbn Hacər və Zəhəbi kimi alimlər isə rəvayətin sənədindəki digər ravi olan Rafidə İbn Quda əl-Ğassani əd-Dəməşqini (h.180/826) zəif olduğunu qeyd edirlər. Rəvayətin sənədindəki Sabit İbn Aclan əl-Ənsariyə gəlincə isə İbn Hacər saduq, Zəhəbi isə salihu -l hədis olduğunu bildirir [Akın, 2015, 29].

"Salihu-l-Hədis"- Zəif raviləri vəsf etmək üçün istifadə edilən termindir. Bu kimi ravilərin rəvayətləri dəlil olaraq göstərilmir [Efendioğlu, DİA, 2009, XXXVI/32].

"Siqa" ravi dedikdə hər hansı bir ravinin ağıllı, təqvalı, güclü hafizəsinin olması və.s kimi ədalət və zəbt kimi hədisçilik xüsusiyyətlərini özündə daşıması nəzərdə tutulur [Yücel, DİA, 2009, XXXVII/175-176].

"Saduq"- ravinin, ümumilikdə, güvənilən, bəzən isə zəif olduğu mənasına gəlir [Yücel, DİA, 2008, XXXV/431].

Məhəmməd Abdu-r-Rauf əl-Münavi (h.1031/1622) "əl-Fəthu-s-Səmavi" adlı kitabında mətndə keçən "hikmət" sözündən Quranın anlaşıldığını qeyd edir. Həmçinin, o, mətndəki كَانَ يُقَالُ "deyilirdi" sözünün hökmünü açıqlayarkən rəvayətin isnadının "rəf", "mərfu muttasıl" və "mərfu mürsəl" kimi fərqli mərtəbələrdə ola biləcəyi ehtimalını nəql edir.

"Rəf"- dedikdə rəvayətin isnadının peyğəmbər (s.a)- ə qədər gedib çıxması, "mərfu muttasıl"- dedikdə isnadın səhabəyə qədər gedib çıxması və "mərfu

mürsəl"- dedikdə bu isnadın tabiuna qədər gedib çıxması nəzərdə tutulur [Münavi, 2010, I/119-121].

Nəticə etibarı ilə tabiundan olan Sabit İbn Aclan əl-Ənsarinin كَانَ يُقَالُ "deyilirdi"- deyə, rəvayət nəqli bu rəvayətin "məvquf" və ya "maqtu" rəvayət olduğunu göstərir. Bu da qeyd edilən rəvayətin zəif olduğunu göstərir [Akın, 2015, 29].

"Məvquf"- isnadın peyğəmbərə çatmadan səhabədə qalmasıdır [Aydınlı, DİA, 2004, XXIX/437-438].

"Maqtu"- isnadın peyğəmbərə çatmadan tabiun və ya onların davamçıları olan ətbəu-t-tabiunda qalmasıdır [Efendioğlu, DİA, 2003, XXVII/457-458].

**5.2."Bəqərə" Surəsi**

Bu surə ilə bağlı Beyzavi təfsirində nəql olunan bir neçə hədis və ravayətə toxunulmuşdur.

قوله صلى الله عليه و سلم: الصلاة عمادالدين و الزكاة قنطرة الاسلام.

*Peyğəmbər (Sallallahu aleyhi və alihi səlləm) belə buyurur: "Namaz dinin dirəyidir. Zəkat İslamın körpüsüdür"* [Beyzavi, Maraşlı, 1418, I/38].

Müfəssir təfsirində iki ayrı hədisi bir hədis kimi nəql etmişdir. Halbuki, hədisdəki namaz və zəkat bölümləri ayrı -ayrı rəvayətləri ehtiva edir. Bu baxımdan hədis alimləri də bu rəvayəti iki ayrı hədis olaraq dəyərləndirmişlər.

Beyhaqi "Şuabu-l-İman" adlı əsərində الصلاة عمادالدين "*Namaz dinin dirəyidir"* hədisini təhlil edərkən bu hədisin sənədindəki İkrimənin hədisi hz. Ömərdən nəql etməsi ilə bağlı rəvayət haqqında qeyd edir: "İkirimə hədisi hz. Ömərdən eşitməyib.Qeyd edilən hədisin hz. Əlidən nəql edilməsinə dair bir şahid vardır"- deyə, nəql edir [Akın, 2015, 30].

Digər hədis alimlərinə gəlincə İbnu-s-Salah "Müşkili-l-vasit" adlı əsərində bu hədislə bağlı "hədis maruf deyildir", Nəvəvi "Şərhu-l-Vasit" adlı əsərində "hədis münkərdir"- deyə, nəql edirlər. Ancaq Zeylai İbnu-s-Salah və Nəvəvinin hədislə bağlı qeyd edilən fikirlərinə etiraz edərək bu kimi sözlərin batil və doğru olmadığını bildirir [Zeylai, 1414, I/42-43; Munavi, tarixsiz, I/132]. Acluni hədisin sənədinin zəif olduğunu Münavi (h.1031/1622) isə hədisin sənədindəki "Haris" adlı ravinin çox zəif olduğunu bildirir [Akın, 2015, 29].

الزكاة قنطرة الاسلام "*Zəkat İslamın körpüsüdür*" hədisi ilə bağlı alimlər aşağıdakı fikirləri bildirmişlər:

Münavi (h.1031/1622) hədisin sənədinin təhlilində: "İbn Cövzi "səhih deyildir" əl-Musannəf "sənədi zəifdir", əl-Heysəmi sənədin ravilərindən "Bakiyyə"- dən başqa digər ravilər məvsuq və Kamal İbn Kəşşaf sənəddəki "Dahhaq İbn Həmzə"- nin zəif olduğunu bildirlər"- deyə, qeyd edir [Münavi, 1356, IV, 71].

Nəticə etibarı ilə Beyzavi iki hədisi bir hədis kimi nəql etmişdir. Bundan başqa yuxarıda da qeyd edildiyi kimi alimlərin əksəriyyəti bu hədisin zəif olduğunu nəql etmişlər.

Beyzavi təfsirində “Bəqərə” surəsində ayətə-l-kürsi deyə adlanan ayə ilə bağlı hədis aşağıdakı kimidir:

عن عقبة بن عمرو أبي مسعود قال سمعت رسول الله صلى الله عليه و سلم يقول: أنزل الله آيتين من كنوز الجنة كتبهما الرحمن بيده قبل أن يخلق الخلق بألفي سنة، من قرأهما بعد العشاء الآخرة أجرأتاه عن قيام الليل.

*Uqbə İbn Amr Əbu Məsud əl-Bədri əl-Ənsari hz. Peyğəmbər (s.a)- dən nəql edir: “Allah Cənnət xəzinələrindən iki ayə endirmişdir. Rahman o iki ayəni məxluqatı yaratmazdan iki min əvvəl əlləri ilə yazmışdır. Kim o iki ayəni işa namazından sonra oxuyarsa, bu onun üçün gecə namazı kimi yazılar”.*

Beyzavi rəvayətin sənədində *Ukbə İbn Amr Əbu Məsud əl-Bədri əl-Ənsarinin* adını çəkmədən birbaşa Peyğəmbər (s.a)- dən nəql edir [Beyzavi, Maraşlı, 1418, I/168]. Həmçinin, bu rəvayəti Zəməxşəri (h. 538/1143) [Zəməxşəri, 1407, I/333], Neysaburi (h. 850/1447) [Neysaburi, 1416, II/95], Xatib əş-Şibrini (h. 977/1570) [əş-Şirbini, 1285, I/426], Şazəli (h. 1224/1808), Şəvkani (h. 1250/1834) [Şəvkani, 1414, I/356], Cəlaləddin Suyuti (h. 905/1505) [Suyuti, tarixsiz, II/139] və.s kimi təfsirçilər də nəql etmişlər.

Hədis alimlərindən olan Əbu Əhməd Abdullah İbn Adiyy (h.365/976) “əl-Kamil” əsərində rəvayətin tam sənədində olanVəlid İbn Abbad adlı ravinin məçhul [Akın, 2015, 34], onun müəllimi olan Əban İbn Əbi Sələmə Ayyaşın isə mətruk ravilərdən olduğunu nəql edir [Zeylai, 1414, I/169; Munavi, tarixsiz, I/135-136].

Maqdisi (h.507/1113) isə Vəlid İbn Abbadın maruf olmadığını nəql edir [Akın, 2015, 34].

Beləliklə, sənədində mətruk və məçhul ravinin olması, eləcə də mövzu hədislərin xüsusiyyətlərindən olan savabda hədsiz sayların istifadə edilməsi rəvayətin səhih olmadığını göstərir.

“Mətruk”- tərk edilmiş mənasına gələn bu söz hədis termini olaraq, bir ravinin hədisi uydurmamış olsa belə yalan danışması ilə bilinən biri olduğu üçün zəif ravilərdən hesab edilir [Efendioğlu, DİA, 2004, 415-416].

“Məçhul”- Heç bilinməyən və ya kifayət qədər tanınmayan ravi mənasına gəlir [Aşıkkutlu, DİA, 2003, XXVIII/286-288].

“Ayətə-l-Kürsi” ilə bağlı digər hədis rəvayəti aşağıdakı kimidir:

إن أعظم آية في القرآن آية الكرسي من قَرَأَهَا بعث لله ملكا يكتب من حسناته ويمحو من سيئاته إلى الغد من تلك الساعة

*“Qurandakı ən əzəmətli ayə ayətu-l-kursidir. Kim onu oxuyarsa, Allah həmin vaxtdan sonrakı günə qədər onun yaxşılığını yazmaq və pisliklərini silmək üçün bir mələk göndərər”* [Beyzavi, 1971, I/135].

Beyzavi ilə yanaşı [Beyzavi, Maraşlı, 1418, I/154], Əbu Suud (h. 982/1575) [Əbu Suud, tarixsiz, I/249], İsmail Haqqı Bursavi (h.1137/1725) [Bursavi, tarixsiz, I/405] və Alusi (h. 1270/1854) [Alusi, 1415, II/12] kimi təfsirçilər də öz əsərlərində yuxarıda qeyd edilən rəvayəti olduğu kimi nəql edir.

Bundan başqa Şəvkani (h.1250/1834) də ayətə-l-kürsinin fəzilətləri ilə bağlı yuxarıda qeyd edilən rəvayətə bənzər rəvayət nəql edir və onun mövzu [Şəvkani, tarixsiz, 299, № 10], İbnu-l-Cəvzi (h. 597/1201) isə) uydurma hədis olduğunu bildirir [İbnu-l-Cövzi, 1966, I/243]. Həmçinin, İbn Adiyy (h. 365/976), Məhəmməd Tahir əl-Maqdisi (h. 507/1113), və İbn Arraq kimi alimlər sənədində İsmail İbn Yahya İbn Abidullah ət-Təyminin olması səbəbi ilə onun batil, Suyuti (h.911/1505) isə sənədində Nəhşəl İbn Səid olduğuna görə mətruk olduğunu nəql edir [İbn Adiyy, 1988, I/305; Suyuti, 2005, II/451; Akın, 2015, 31]

Beyzavi təfsirində yuxarıda qeyd edilən ayənin fəziləti ilə bağlı digər rəvayət aşağıdakı kimidir:

«مَنْ قَرَأَ آيَةَ الكُرْسيّ دبُر كُلِّ صلاةٍ مكتوبةٍ لم يَمْنَعْه من دُخُولِ الجْنَّة إلا الموتُ و في رواية - كانَ الذي يَتوَلَّى قَبْضَ رُوحِه ذُو الجَلَال والإكْرَام - وفي رواية - ولا يوُاظِبُ عليها إلا صِدِّيقٌ أو عَابدٌ ، ومن قَرَأها إذا أَخَذ مَضْجَعَه أمن (أَمنه لله تَعَالَى) عَلَى نفْسِه وَجارِه وَجارِ جَارِه، والأبيات حَوْلَه».

*“Kim fərz namazlarından sonra ayətə-l-kürsi oxuyarsa, onun cənnətə girməsi ilə arasında ancaq ölümü qalar”. Başqa bir rəvayətdə: “Onun birbaşa ruhunu alan Uca və İkram sahibi Allahdır”. Bir başqa rəvayətdə də: “Bunu ancaq sadiq, dürüst və ibadət sahibi olan biri davamlı olaraq edə bilər. “Hər hansı bir şəxs yatanda bunu oxuyarsa, Uca Allah ona, qonşusuna, qonşusunun qonşusuna və həmin ətrafdakı evlərə sakitlik, dinclik, rahatlıq verər”* [Beyzavi, 1971, I/135].

Bu rəvayəti Zəməxşərinin “əl-Kəşşaf” adlı təfsir əsərində olduğu kimi görmək mümkündür [Zəməxşəri, 1407, I/301].

Məşhur hədis alimlərindən olan Beyhaqi (h. 458/1066) “Şuabu-l-İman” adlı əsərində bu rəvayəti Əli İbn Əbu Talibdən eşitdiyini deyən Habbətu-l-Urani və Əbu İshaq yolu ilə nəql edir. Ancaq o, bu rəvayətdə yuxarıda qeyd edilən rəvayətin *“Bunu ancaq sadiq, dürüst və ibadət sahibi olan biri davamlı olaraq edə bilər”* hissəsini qeyd etmir. Həmçinin, o, bu rəvayətin zəif olduğunu nəql edir [Beyhaqi, 1410, II/458, № 2395]. Bundan başqa İbn Hacər əl-Əsqalani də bu rəvayətin sənədində olan Nəhşəl İbn Səid və Habbətu-l-Urani kimi ravilərin mətruk olduğunu qeyd edərək rəvayətin zəif olduğunu nəql edir [Beyhaqi, 1410, II, 458, № 2396].

“Mətruk” hədisin uydurulmuş olmamasına baxmayaraq gündəlik həyatında yalan danışdığı bilinən ravinin rəvayət etdiyi hədislərə deyilir ki, bu da zəif hədis növlərindən hesab edilir [Efendioğlu, DİA, 2004, XXIX/415-416].

**5.3.Ali-İmran surəsi**

Beyzavi təfsirində bu surə içində mövzu olması səbəbi ilə təhlil ediləcək bir neçə rəvayət mövcuddur. Ancaq mövzunun günişliyini nəzərə alaraq onlardan bir neçəsi təqdim ediləcək.

قَالَ عَلَيهِ السَّلَامُ: مَنْ مَاتَ فِي أَحَدِ الْحَرَمَيْنِ بُعِثَ آمِناً يَوْمَ الْقِيَامَةِ

Peyğəmbər (aleyhi-s-sələm) buyurdu: Kim harameyindən (Məkkə və ya Mədinədən) birində ölərsə, o, qiyamət günü dinc və hüzurlu olaraq dirildilər.

Bu hədis Hz.Ömər (h. 644), Hatib əl-Bağdadi (h.463/1071) və Ənəs İbn Malik (h.93/711-712) tərəfindən müəyyən kəlimə və ya cümlə əlavələri ilə aşağıdakı kimi rəvayət edilmişdir:

«عَنْ عُمَرَ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: سَمِعْتُ رَسُولَ اللَّهِ صَلى الله عَلَيْهِ وَسلّم يَقولُ: مَنْ زَارَ قَبْرِي، أَوْ قَالَ: مَنْ زَارَنِي كُنْتُ لَهُ شَفِيعاً أَوْ شَهِيداً وَ مَنْ مَاتَ فِي أَحَدِ الْحَرَمَيْنِ بُعِثَ آمِنِينَ يَوْمَ الْقِيَامَةِ».

*Hz.Ömər rəvayət edir ki, Rəsulullah (s.a) buyurur: "Kim mənim qəbrimi və ya məni ziyarət edərsə, ona şəfaətçi və ya şahid olaram.* Kim harameyindən (Məkkə və ya Mədinədən) birində ölərsə, o, qiyamət günü dinc və hüzurlu olaraq dirildilər [Tayalisi, 1999, I/12; №65; Beyhaqi, 1410, III/488; № 4153].

عَنْ حَاطِبٍ قَالَ رَسُولَ اللَّهِ صَلى الله عَلَيْهِ وَسلم: «مَنْ زَارَنِي بَعْدَ مَوْتِي فَكَأَنَّمَا زَارَنِي فِي حَيَاتِي وَ مَنْ مَاتَ فِي أَحَدِ الْحَرَمَيْنِ بُعِثَ آمِنِينَ يَوْمَ الْقِيَامَةِ».

*Hatib rəvayət edir ki, Rəsulullah (s.a) buyurur: "Kim mənim ölümümdən sonra məni ziyarət edərsə, həyatda ziyarət etmiş kimidir.*Kim harameyindən (Məkkə və ya Mədinədən) birində ölərsə, o, qiyamət günü dinc və hüzurlu olaraq dirildilər [Darakutni, 2004, III/333; № 2694]

Bu rəvayət Ənəs İbn Malikdən müəyyən dəyişikliklərlə aşağıdakı kimi nəql edilir:

عَنْ أَنَس بِنِ مَالِكٍ قَالَ: قَالَ رَسُولَ اللَّهِ صَلى الله عَلَيْهِ وَسلم: «مَنْ مَاتَ فِي أَحَدِ الْحَرَمَيْنِ بُعِثَ آمِنِينَ يَوْمَ الْقِيَامَةِ، وَمَنْ زَارَنِي مُحْتَسِباً إِلَى الْمَدِينَةِ كَانَ فِي جِوَارِي يَوْمَ الْقِيَامَةِ».

*Ənəs İbn Malik rəvayət edir ki, Rəsulullah (s.a) buyurur: "Kim harameyindən (Məkkə və ya Mədinədən) birində ölərsə, o, qiyamət günü dinc və hüzurlu olaraq dirildilər. Həmçinin, Kim ki, savab diləmək üçün Mədinədə məni ziyarət edərsə, qiyamət günü mənim qonşum olar.*

Hədis alimlərindən Heysəmi Cabirdən nəql edilən isnadda qeyd edilən rəvayətin həsən olduğunu nəql edir [Əbu Nuaym, Yusuf, 1998, II/260-261; № 661-662].

Məşhur hədis alimlərindən olan Əbu İsa ət-Tirmizi tərəfindən termin kimi istifadə edilən "həsən" sözü hədis elmində səhih hədisin şərtlərini özündə əks etdirməklə yanaşı, ravisinin səhih hədis ravisi ilə müqayisədə zəif olan hədislərə deyilir. Yəni, həsən hədis səhih hədislə zəif hədis arasında olmaqla səhih hədisə yaxınlığı ilə seçilir [Uğur, DİA, 1997, XVI/374 -375].

Bu rəvayəti Beyzavi ilə yanaşı, Zəməxşəri (h. 538/1143),Sələbi (h. 437/1046), Razi (h. 606/1210), Nəsəfi (h. 710-/1310), Neysaburi (h. 850/1447), Suyuti (h. 911/1505), Xatib əş-Şibrini (h. 977/1570), Əbu-s-Suud

(h. 982/1575), İsmail Haqqı Bursavi (h. 1137/1725), Şazəli (h. 1224/1809), Alusi (h. 1270/1854) kimi təfsirçilər də əsərlərində nəql edir [Akın, 2015, 41].

İbnu-l-Cövzi (h. 597/1201) "əl-Məvduat" adlı əsərində qeyd edilən rəvayətin sənədində İbn Hibbandan nəql edən Abdulğafurun hədis uyduran birinin olduğunu qeyd edir. Hafiz İbn Həcər isə İbnu-l-Cövzinin nəql etdiyi fikirləri xəta kimi dəyərləndirir [Münavi, tarixsiz, I/379 -382; Zeylai, 1414, I/197-199].

İbn Abdi-l-Bərr isə (h. 463/1071) belə bir hədisi bilmədiyini bildirir [Akın, 2015, 40].

Qeyd edilən fikirlərə nəzər saldıqda aydın olur ki, rəvayətin səhihliyinin şübhəli olduğu və bu hədisə ehtiyatlı yanaşılmalı olduğunu göstərir.

"Ali-İmran" surəsində "Ali-İmran" surəsnin 97-ci ayəsi- hac ayəsi ilə bağlı Beyzavinin nəql etdiyi və təhlil ediləcək rəvayət aşağıdakı kimidir:

و روي أنه لما نزل صدر الآية أي قوله: (وَلِلّٰهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ)، جمع رسول الله صلى الله عليه و سلم أرباب الملل فخطبهم وقال: إن الله تعالى كتب عليكم الحج فحجوا، فآمنت به ملة واحدة و كفرت به خمس ملل، فنزل (و من كفر فإن الله غني عن العالمين).

Rəvayət olunur ki, "Hac" ayəsi nazil olduqda *("Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur")* (Bünyadov-Məmmədəliyev) Peyğəmbər (s.a) bütün din mənsublarını (ərəb müşriklərini, xristianları, yəhudiləri, məcusiləri və sabiləri) çağırıb onlara xitab edədərək, buyurdu: "Ey insanlar, Uca Allah sizə haccı fərz etdi, hac edin". Sadəcə bir millət; Hz. Peyğımbər (s.a) -ə iman etdi, qalan beş dinin mənsubları isə inkar etdilər. Uca Allah: "*Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir"* (Bünyadov- Məmmədəliyev)- ayəsini nazil etdi.

Bu rəvayəti Beyzavi ilə yanaşı [Beyzavi, Maraşlı, 1418, II/30], Saləbi (h. 437/1046) [Saləbi, 1418, II/81], Xətib əş-Şirbini (h. 977/1570) [Əş-Şirbini, 1285, I/235] və.s kimi təfsirçilər də əsərlərində nəql edir.

Suyuti isə (h.911/1505) yuxarıdakı rəvayətə müəyyən əlavələr və dəyişikliklərlə Said İbn Mənsur və İbn Cərir ət-Təbəri Dahhaq tərəfindən mürsəl olaraq nəql olunan aşağıdakı rəvayəti qeyd edir:

عن الضحاك قال: لما نزل صدر الآية أي قوله: (وَلِلّٰهِ عَلَى النَّاسِ حِجُّ الْبَيْتِ)، جمع رسول الله صلى الله عليه و سلم أهل الملل: مشركي العرب، و النضارى، و اليهود، و المجوس، و الصائبين فقال: إن الله فرض عليكم الحج فحجوا البيت. فلم يقبله إلا المسلمين، و كفرت به خمس ملل.قالوا: لانؤمن به، ولا نصلى إليه، و لا نستقبله. فأنزل الله (و من كفر فإن الله غني عن العالمين).

Dahhak rəvayət edir ki, "hac" ayəsi enəndə - *("Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi (Kəbəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur")* Peyğəmbər (s.a) bütün din mənsublarını (ərəb müşriklərini, xristianları, yəhudiləri, məcusiləri və sabiləri) çağırıb, buyurdu: "Ey insanlar, Uca Allah sizə haccı fərz etdi, hac

edin". Müsəlmanlardan başqa heç bir millət bu ayəni qəbul etmədi. Bu beş millət belə dedi: "Biz beytullaha tərəf nə yönələrik nə də namaz qılarıq". Buna görə Uca Allah: "*Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir"* [Bünyadov-Məmmədəliyev, 2015, Ali-İmran, 97]- ayəsini nazil etdi [Səid İbn Mənsur, 1997, III/1074].

Bu rəvayət haqqında fərqli fikirlər vardır. Belə ki, İbn Hacər bu rəvayətin "mudal" olduğunu bildirir. Münavi isə rəvayətin sənədindəki Cüveybir adlı ravi haqqında: ""mətruku-l-hədis" və saqit biridir" [Münavi, 2010, I/389]- hökmü ilə qiymətləndirir.

"***Mudal***"*:* Rəvayətin isnadındakı ravilərin bir-birinin ardınca iki və ya daha çox ravinin düşdüyü hədisə deyilir [Efendioğlu, DİA, 2020, XXX/354-355].

***"Saqit***"*:* Siqalıq (etimad və güvən) vəsfini itirmiş raviyə deyilir ki, raviləri dəyərləndirən "cərh" sözü olaraq istifadə edilir [Aydınlı. DİA, 2009, XXXVI/5].

Nəticədə qeyd edilən hədis alimlərinin dəlillərinə nəzər yetirdikdə hədisin mövzu olduğu ortaya çıxır.

Beyzavi təfsirində "Ali-İmran" surəsində təhlil ediləcək digər rəvayət aşağıdakı kimidir:

مَنْ مَاتَ وَلَمْ يَحُجَّ فَلْيَمُتْ إِنْ شَاءَ يَهُودِيّاً أَوْ نَصْرَانِيّاً.

*Rəsulullah (s.a) buyurur:"Kim hac etməyərək ölərsə, istər Yahudi olaraq, istərsə də Xristian olaraq ölsün.*

Bu hədisi Beyzavi (h. 685-691/1285-1291) ilə yanaşı [Beyzavi, Maraşlı, 1418, II/ 30], Zəməxşəri (h. 538/1143) [Zəməxşəri, 1407, I/390, Razi (h. 606/1210]; [Razi, 1420, VIII/305], Nisaburi (h.405/1014) [Nisaburi, 1416, II/219], Əbu Suus (h. 982) [Əbu Suud, tarixsiz, II/62], Əsiruddin Əndəlusi (h.745/1344) [Əndəlusi, 1420, III/278] və.s kmi bir çox təfsirçi nəql edir.

Bu hədisin fərqli rəvayətləri aşağıdakı kimidir:

عن أبي أُمَامَةَ قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَسَلَّمَ: «مَنْ لَمْ يَمْنَعْهُ مِنَ الْحَجِّ حَاجَةٌ ظَاهِرَةٌ أَوْ سُلْطَانٌ جَائِرٌ أَوْ مَرَضٌ حَابِسٌ فَمَاتَ وَلَمْ يَحُجَّ فَلْيَمُتْ إِنْ شَاءَ يَهُودِيًّا أَوِ نَصْرَانِيًّا».

*Əbu Umamədə rəvayət olunur ki, Rəsulullah (sallallahu aleyhi və səlləm) belə buyurur*: *"Kim ki, önəmli bir zərurəti, zülm edən bir hökmdarın varlığı və ya yatağa düşürən bir xəstəliyi olmadığı halda hac etmədən ölərsə, istəir Yahudi olaraq, istərsə də Xristian olaraq ölsün*" (Darimi, 2013, 437; Mənəsik, № 1937).

Aşağıda bu rəvayətə yaxın digər rəvayətin sənədində hz. Əli də vardır:

عن عَلِيّ (ع) قَالَ رَسُولُ اللهِ صَلَّى اللهُ عَلَيْهِ وَآله وسَلَّمَ: «مَنْ مَلَكَ زَاداً وَ رَاحِلَةً تُبَلِّغُهُ إِلَى بَيْتِ اللهِ وَلَمْ يَحُجَّ فَلاَ عَلَيْهِ أَنْ يَمُوتَ يَهُودِيّاً أَوْ نَصْرَانِيّاً وَذَلِكَ أَنَّ اللهَ يَقُولُ فِي كِتَابِهِ (وَلِلّهِ حِجُّ الْبَيْتِ مَنِ اسْتَطَاعَ إِلَيْهِ سبِيلاً)».

*Hər kim ki, Kəbəyə çatdıracaq minik və azuqəsi olduğu halda hac etməyərək ölərsə, istəir Yahudi olaraq, istərsə də Xristian olaraq ölsün*".

Tirmizi bu hədisi "qərib" adlandıraraq isnadında tənqidin olduğunu və rəvayətin sənədindəki Hilal İbn Abdullahı məchul, Harisi isə hədisdə zəif olduğunu bildirir [Tirmizi, 1975, III/167; № 812; Beyhaqi, 2003, V/443; № 3692].

İbn Adiyy (h. 365/976) və Ukyali (h. 322/934) Buxarinin Hilal maddəsinə isnad edərək ravini munkəru-l-hədis olduğunu nəql edirlər. Həmçinin, İbnu-l-Cövzi də "əl-Məvduat" əsərində İbn Adiyydən nəql edərək qeyd edilən rəvayətlə bağlı eyni fikri bildirir [Akın, 2015, 41].

*Munkər hədis:* Zəif ravinin rəvayətinin güvənilən ravilərin rəvayətinə zidd olmasıdır [Efendioğlu, DİA, 2006, XXXII/13-14].

Bundan başqa qeyd edilən rəvayətə bənzər bir rəvayəti İbn Adiyy "əl-Kamil" əsərində Əbu Əbu-l-Mihzəm Yezid İbn Sufyan maddəsində Əbu Hüreyrədən mərfu olaraq nəql edir. Ancaq Bəsrəli hədis alimi olan Əli İbn Bahr əl-Fəllas (h.249/864) [Başaran, DİA, 1995, XII/309] Əbu-l-Mihzəm adlı ravinin yalançı olduğunu nəql edir [Akın, 2015, 41].

İbn Hacər əl-Əsqalani (h.852/1449) isə sənədində Əbu Ümamə olan rəvayətin ravilərində yalançı olmadığını nəql edərək İbnu-l-Cövzinin xətalı olduğunu bildirir [Akın, 2015, 41].

Nəticə etibarı ilə qeyd edilən rəvayətlə bağlı qeydləri nəzərə aldıqda rəvayətin hökmünə dair məsələdə ehtiyatlı yanaşılmalıdır.

"Ali-İmran" surəsinin fəziləti ilə bağlı rəvayət və təhlili aşağıdakı kimidir:

زر بن حبيش عن أُبي بن كعب قال: قال رسول الله صلى الله عليه و السلم: (من قرأ سورة آل عمران أُعطي بكلّ آية منها أمانا على جسر جهنم).

*Rəsulullah (sallallahu aleyhi və-s-səlləm)-dən belə rəvayət edilmişdir: ""Ali-İmran" surəsini oxuyan bir şəxsə hər bir ayə qarşılığında Cəhənnəm körpüsündə əmin-amanlıq verilir".*

Bu rəvayəti Beyzavidən başqa [Beyzavi, Maraşlı, 1418, II/52], Zəməxşəri (h. 538/1143) [Zəməxşəri, 1998, I/368], Saləbi (h.437/1046) [Saləbi, 2002, III/5], Xətib əş-Şirbini (h. 977/1570) [Əş-Şirbini, Tarixsiz, I/611], Əbu-s-Suud (h. 982/1575) [Əbu-s-Suud, tarixsiz, II/26] və Alusi (h. 1270/1854) [Alusi, 1415, III/395], Razi (h. 606/1210) [Razi, 1420, VIII/305] və.s kimi bir çox təfsirçilər də qeyd edir.

Bu rəvayət İbnu-l-Cövzinin (h. 597/1201) "əl-Məvduat" adlı əsərində Übey İbn Kabdan nəql edilib [İbnu-l-Cövzi, tarixsiz, I/239].

Suyuti qeyd edir ki, "Übey İbn Kabdan nəql edilən Quranın surə- surə fəzilətlərinə dair nəql olunanlar mövzu rəvayətlərdir. Bu rəvayətin mövzu olduğuna klassik və yeni hədisçilər, hafizlər və tənqidçilər vurğulamışlar. Bu rəvayəti təfsirinə alan müfəssirləri də qınadılar" [Akın, 2015, 57].

*"Metafizika" Journal*
***2025, vol 8, issue 4, serial 32, pp.14-52***

Beləliklə, Suyutinin də qeydlərinə diqqət etdikdə bu rəvayətin mövzu olduğu ortaya çıxır.

Beyzavi təfsirində Nisa surəsində təhlil ediləcək rəvayətlər.

وَ قَوْلِهِ عَلَيْهِ السَّلَام: مَا اجْتَمَعَ الْحَرَامُ وَالْحَلَالُ إِلّا الْغَلَبَ الْحَرَامُ الْحَلَالَ

*Peyğəmbər (sallallahu aleyhi və-s-səlləm)-dən nəql edildiyinə görə: "Haram ilə halalın birləşdiyi yerdə haram qələbə çalar"*

Bu rəvayəti Beyzavi ilə yanaşı [Beyzavi, Maraşlı, 1418, I/444], Fəxrəddin Razi (h. 606/1210) [Razi, 1981, III/323], Əbu Hafs ən-Numani (h.775/1373) [Numani, tarixsiz, III/99] [Akın, 2015, 46] kimi təfsirçilər qeyd edir.

Beyhaqi (h.458/1055) "Əs-Sünənu-l-Kubra" adlı əsərində bu hədisi Cabir əl-Cufi əş-Şəbidən o da İbn Məsuddan nəql etdiyini, Cabir əl-Cufinin Zəif ravi olduğunu və rəvayətdə Şəbini ötürərək bir başa İbn Məsuda isnad etdiyini nəql edir [Beyhaqi, 2003, VII/275].

Məşhur təfsir alimlərindən olan Zeynuddin əl-İraqi də (h.806/1404) bu rəvayətin doğruluğunun olmadığını, Tacəddin əs-Subki isə bu rəvayəti Cabir əl-Cufinin (h. 128/746) nəql etdiyini və onun da zəif olduğunu bildirir [Münavi, tarixsiz, II /473-475].

Bundan başqa Şubə İbn Haccac (h.160/766) və Sufyan əs-Sevri (h.161/768) kimi hədis alimləri Cabir əl-Cufini siqa ravi, bir çox mütəxəssislər isə zəif olduğunu bildirir [Heysəmi, tarixsiz, I/173, 241].

Tirmizi Cabir əl-Cufidən altı, Əbu Davud, iki, İbn Macə on altı, Darimi üç, Əhməd İbn Hanbəl doxsan yeddi rəvayət nəql etmişdir [Akın, 2015, 46].

Əbu Davud (h. 275/889)"əs-Sünən" adlı hədis kitabının "salat" bölümündə Cabir əl-Cufi haqqında: "*Bu ravinin mənim kitabımda səhv hadisindən başqa hadisi yoxtur*" - deyə, nəql edir [Əbu Davud, 2009, Salat, 195; № 1036].

Məşhur hədis kitabı olan kutubu sittənin digər müəlliflərindən olan Tirmizi isə (h. 279/892) Cabir əl-Cufi haqqında: "Alimlər hədislərini zəif saydılar"- deyə nəql edir [Tirmizi, 1987, Salat, 38, 152; № 206, 364].

Nəticə etibarı ilə bir çox alimin Cabir Əl-Cufinin zəif ravi hədis hesab etməsi, "hədislərinin əsli yoxdur" kimi ifadələr nəql etmələri bu rəvayətin mövzu olduğunu göstərir.

Nisa surəsindəki digər rəvayət isə aşağıdakı kimidir:

قَالَ عَلَيْهِ السَّلَام: أَلْحَرَائِر ُصَلَاحُ الْبَيْتِ، وَالإِمَاءِ هَلَاكَهُ

*Peyğəbər (s.a)- dən nəql edilən rəvayətə görə: "Azad qaınlar evin hüzuru, cariyələr isə evin fəlakətidir"* [Deyləmi, 1986, II/191; № 2820].

Bu hədisi Beyzavi ilə yanaşı [Beyzavi, Maraşlı, 1418, I/446], Zəməxşəri (h. 538/1143) [Zəməxşəri, 1998, I/399], Saləbi (h.437/1046) [Saləbi, 2002, III/290], Xətib əş-Şirbini (h. 977/1570) [Əş-Şirbini, Tarixsiz, I\651], Alusi (h. 1270/1854) [Alusi, 1415, IV/24], Əbu Hafs ən-Numani (h.775/1373) [Numani, tarixsiz, V/129], Nisaburi (h.405/1014) [Nisaburi, 1416, II/397], eləcə də

Kurtubi (h. 671/1273), Nəsəfi (h. 710/1310) Əbu-s-Suud (h. 982/1575) və İsmail Haqqı Burəsvi (Bursəvi,) (h. 1137-/1725) [Akın, 2015, 47] kimi təfsirçilər əsərlərində qeyd edirlər. Ancaq bu hədis Ənəs İbn Malik və Əbu Hüreyrə kimi səhabələrdən müəyyən kəlimə və dəyişikliklərlə də nəql edilir.

Qeyd edilən rəvayət Ənəs İbn Malikdən aşağıdakı kimi nəql edilir:

عَنْ أَنَسٍ سَمِعْتُ رَسُولَ للهِ صَلَّى اللهُ عَلَيْهِ وَ سَلَّمَ قَال: "مَنْ أَرَادَ أَنْ يَلْقَى اللهَ طَاهِراً مُطَهَّراً فَلْيَتَزَوَّجِ الْحَرَائِرِ

*Ənəs nəql edir ki, mən Rəsulullah (s.a) – dən eşitdim: "Allaha təmiz və təmizlənmiş olaraq qovuşmaq istəyən azad qadınlarla evlənsin".*

Saləbi qeyd edir ki, yuxarıdakı hədisin sənədindəki Əhməd İbn Məhəmməd İbn Ömər İbn Yunus əl-Yəmmami, Əhməd İbn Yusuf əl-İcli və Ənəsin xidmətçisi olan Yunus İbn Mirdas kimi ravilər bir- birindən ardıcıllıqla: "Ənəs hədisi nəql edəndə mən Ənəs və Əbu Hureyrə ilə birlikdə idim" – deyə, nəql edirlər [Akın, 2015, 47].

Əbu Hureyrə isə yuxarıdakı hədisi aşağıdakı kimi nəql edir:

عَنْ أَبِي هُرَيْرَة سَمِعْتُ رَسُولَ للهِ صَلَّى اللهُ عَلَيْهِ وَ سَلَّمَ قَال: «الْحَرَائِرِ صَلَاحُ الْبَيْتِ، والْإِماءُ هَلَاكُ (فَسَادُ) الْبَيْتِ».

*Əbu Hureyrə nəql edir ki, mən Rəsulullah (s.a) – dən eşitdim: "Azad qaınlar evin hüzuru, cariyələr isə evin fəlakətidir (fəsadıdır)".*

Bu rəvayət haqqında alimlər müxtəlif fikirlər bildirmişlər. Belə ki, İbn Hacər əl-Əsaqalani rəvayətin ravilərindən Əhməd İbn Məhəmmədin mətruk olduğunu nəql edir. Hədis alimlərindən İbn Əbi Hatim (h.327/938) isə Əhməd İbn Məhəmmədin yalançı olduğunu və ravilərdən Yunus İbn Mirdas haqqında hər hansı məlumatın olmadığını nəql edir [Münavi, tarixsiz, II/447-478]. Şəvkani rəvayətin sənədində məçhul və mətruk ravi olduğunu [Şəvkani, 1960, 131; № 40]. Şəmsəddin Səxavi (h. 902/1497), İsmail İbn Məhəmməd əl-Acluni (h.1162/1749) [Akın, 2015, 47] və Fəttani (h. 986/1578) [Fəttani, 1323, 127] kimi alimlər isə ravilərdən Əhməd İbn Məhəmməd İbn Ömər İbn Yunus əl-Yəmmaminin mətruk, Yunus İbn Mirdasın isə məçhul olduğunu bildirir.

Beləliklə, nəql edilən hədisdə məçhul və mətruk ravilərin olması, eləcə də qeyd edilən alimlərin fikirlərini də nəzərə aldıqda hədisin uydurma olduğu ortaya çıxır.

Beyzavi təfsirində "Nisa surəsinin fəzilətləri ilə bağlı Übey İbn Kaabdan nəql edilən rəvayət aşağıdakı kimidir:

عن أُبي بن كعب عن النبي صلى الله عليه وسلم: من قرأ سُورَةَ النِّسَاءِ فَكَأَنَّمَا تَصَدَّقَ على كل مؤمن و مؤمنة ، وورث ميراثا و أُعطي من الاجر كمن اشترى محررا و برئ من الشرك و كان في مشيئة الله تعالى من الذين يتجاوز عنهم.

"*Kim "Nisa" surəsini oxuyarsa, sanki o hər kişi və qadın möminə sədəqə vermiş və miras qoymuş kimidir. Ona bir köləni alıb, azad etmiş kimi savab*

*verilir. Həmçinin, şirkdən təmizlənmiş olur və o həddi aşanlara qarşı Allahın qorumasında olar*”.

Beyzavidən [Beyzavi, Maraşlı, 1418, II/44] başqa bu rəvayəti Zəməxşəri (h. 538/1143) [Zəməxşəri, 1998, I/496], Xətib əş-Şirbini (h. 977/1570) [Əş-Şirbini, tarixsiz, I/279], Əbu s-Suud (h. 982/1575) [Əbu-s-Suud, tarixsiz, II/196] və bu hədisin tam sənədini qeyd edən Saləbi (h. 437/1046) [Saləbi, 2002, III/241] kimi təfsirçilər nəql etmişlər.

Saləbi (h.437/1046) hədisin sənədini aşağıdakı kimi nəql edir:

أخبرنا أبو جعفر كامل بن محمد النحوي أنا أبو عمرو محمد بن جعفر الشروطي ثنا إبراهيم بن شريك الكوفي ثنا أحمد بن عبد الله بن يربوعي ثنا سلام بن سليمان المدائني ثنا هارون بن كثير عن زيد بن أسلم عن أبيه عن أبي أمامة عن أبي بن كعب عن النبي صلى الله عليه و سلم.

İbn Hibban (h. 354/965) “Kitabu d-Duafa” adlı əsərində bu rəvayətin sənədindəki Sələm İbn Səlim ət-Tavilə adlı ravinin Mədainli olduğunu və künyəsinin Süleyman olduğunu bildirir. Onun Hümeyd ət-Tavil adlı ravidən və başqalarından rəvayətlər nəql etdiyini, eləcə də Əbu Xalid əl-Əhmar adlı ravinin də Sələm İbn Səlim ət-Taviləden rəvayət nəql etdiyini qeyd edir. Sələm ibn Səlim ət-Tavilə siqa ravilərdən mövzu hədislər nəql edir. Hər nə qədər də güvənilən və ya etimad edilən sənəd kimi görünsə də ravilər arasındakı Yahya İbn Mainin olması və onun hədsiləri bu rəvayətin sənədini zədələyir [Münavi, 2010, II/546; İbnu-l-Cövzi, 1966, I/239; Zeylai, 1414, I/371-373; Akın, 2015, 49].

İbnu-l-Cövzi də “əl-Məvduat” adlı əsərində yuxarıdakı rəvayəti tam sənədi ilə aşağıdakı kimi nəql edir:

أنبأنا المبارك بن خيرون بن عبد الملك قال أحمد بن الحسن بن خيرون قال أنبأنا أبو طاهر محمد بن علي العلاف قال أنبأنا عثمان بن محمد الآدمي قال أنبأنا أبو بكر بن ابي داوود السجستاني إذنا قال حدثنا محمد بن عاصم قال حدثنا شبابة بن سوار قال حدثنا محمد بن عبد الواحد عن علي بن زيد بن جدعان و عطاء ابن أبي ميمونة عم زر بن حبيس (حبيش) عن أبي بن كعب عن النبي صلى الله عليه وسلم: من قرأَ سُورَةَ النِّسَاءِ فَكَأَنَّمَا تَصَدَّق على كل مؤمن و مؤمنة، وورث ميراثا و أُعطي من الاجر كمن اشترى محررا و برئ من الشرك و كان في مشيئة الله تعالى من الذين يتجاوز عنهم.

İbnu-l-Cövzi, İbn Hibban, Zeylai və Münavi kimi mövu hədislərlə bağlı əsərlər yazan mütəxəssislər bu rəvayətin mövzu olduğunu qeyd edirlər [Münavi, 2010, II/546; İbnu-l-Cövzi, 1966, I/239; Zeylai, 1414, I/371-373].

**6.Nəticə**

Nəticə etibarı ilə Beyzavi təfsirində “Fatiha”, “Bəqərə”, “Ali – İmran” və “Nisa” surələrində mövcud olan bəzi mövzu hədis nümunələrinin digər təfsirlərdə olub – olmaması müqayisə edilmiş, eləcə də İbn Hibban, Münavi, İbnu-l Cövzi, Zeylai və.s kimi mövzu hədislərlə bağlı əsərlər yazan alimlərin qeyd edilən rəvayətlərlə bağlı fikirləri nəql edilmişdir.

Beyzavi təfsiri adı ilə məşhur olan “Ənvar ət-Tənzil və Əsrar ət-Təvil” əsəri fərqli üslub, yığcamlıq və ecazkarlıq nümunəsi kimi hər zaman diqqəti cəlb

etmiş və dərs kitabı kimi oxudulmuşdur. Bir müddət qazilik edən Nasirəddin Beyzavi Kəlam, fiqh, fiqh üsulu və.s kimi islami elmlərdə də əsərlər yazmış və bu elmi dərinliyini təfsir əsərinə də yansıtmışdır. O, təfsir əsərində dirayət və rəvayət təfsir metodlarını birləşdirməyə çalışmışdır. Belə ki, müfəssirin hədislərdən sitatlar nəql etməsi rəvayət təfsir üslubunun bariz nümunələrindən hesab edilir.

Düşünürəm ki, bu məqalədə "Fatiha", "Bəqərə", "Ali-İmran" və "Nisa" surələri olmaqla, iyirmi iki mövzu, eləcə də zəif hədis və rəvayətlərin nəql edilməsi, ümumi olaraq, Beyzavi təfsirində bu növdən olan hədislərin mənbələrini və ya onların yazı ülub və tərzini bizə açıqlayır.

Ümumiyyətlə, Beyzavinin yaşadığı XIII əsr, eləcə də ondan əvvəlki dövrün təfsir yazı üslubuna nəzər yetirdikdə bir-birini izləyən metodu görmək mümkündür.Xüsusi ilə Quranın fəzilətləri ilə bağlı mövzu hədislərin nəqlində başda Zəməxşəri olmaqla, Beyzavi, Hatib əş-Şibrini, Əbu Hafs ən-Numani, Əbu-s-Suud və Salabi və.s kimi müfəssirlərin adlarını çəkmək olar.

Nasirəddin Beyzavinin "Ənvar ət-Tənzil və Əsrar ət-Təvil" adlı təfsir əsəri bir çox yöndən özündən sonrakı təfsir əsərlərinə mənbə rolunu oynamışdır. Ancaq yığcamlığı və ecazkarlığı ilə seçilən əsər bir çox alim tərəfindən tənqid də edilmişdir. Belə ki, müfəssir hədis və ya rəvayətləri nəql edərkən onların tam sənədini qeyd etməmişdir.

Tədqiqatın mövzusu olan Quranın fəzilətlərinə dair rəvayətlər bölümündən aydın olur ki, Beyzavi bu kimi rəvayətləri Zəməxşərinin "əl-Kəşşaf" əsərindən sənəd və rəvayət olaraq eyni ilə nəql edir. Həmçinin, bu növdən olan rəvayətlərin isnadı Übey İbn Kaba gedib çıxır. Bu baxımdan Əli İbn Əl-Çövzi, İbn Hibban, Zeylai və.s kimi mövzu hədislərlə bağlı əsərlər yazan alimlər Übey İbn Kabın yalançı olduğunu və ya hədis uydurduğunu qeyd edirlər. Məhz, Zeylainin "Təxricu-l Əhadisi-l-Kəşşaf" əsəri Zəməxşəri ilə Beyzavi təfsrində bu növdən olan hədislərin müqayisə edilməsində mənbə rolunu oynayır.

Bundan başqa Beyzavinin nəql etdiyi hədislərə təxric əsəri yazan Zeynuddin Məhəmməd Abdurrauf əl-Haddadi əl-Münavi (h. 1031/1622) "əl-Fəthu-s-Səmavi bi Təxrici" adlı təxric əsərində Beyzavinin təfsir əsərində səhih hədislərlə yanaşı, zəif, uydurma, sənədsiz və isnadsız əsli olmayan rəvayətlər, hətta doğruluğu bilinməyən xəbər və rəvəyətlər olduğunu bildirir. Baxmayaraq ki, Katib Çələbi, Bursavi v.s kimi alimlər Beyzavinin yüksək elm və mənəvi ucalığlını diqqətə çatdıraraq onun əsərində mövzu və zəif hədislərin olmasını xəta kimi görməmiş və ona haqq qazandırmağa çalışmışlar.

Nəticə etibarı ilə insanları doğru yola yönəltmək, eləcə də insanların Qurandan uzaqlaşmasına mane olmaq üçün də olsa, Peyğəmbər adına hədis və rəvayətlərin nəql edilməsi böyük bir xəta və yanlış hesab edilir. Necə ki, xəlifələrdən h. Ömər (h. 23/644), hz. Osman (h.35/656), hz. Əli (h. 40/661)

kimi xəlifələr, Əbu Hüreyrə (h. 58/678), Ammar ibn Yasir (h. 37/657), Əbu Said əl-Hudri (h. 74/693), Abdullah ibn Amr əl-As (h. 65/684), Ənəs İbn Malik və.s kimi səhabələrdən hədis elmində məşhur olan şəxslər hədis nəqlində ehtiyatlı davranmışlar [İnan, 2023, 465-48].

Çünki, onlar (مَنْ كَذَبَ عَلَيَّ مُتَعَمِّداً فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ) *“kim bilə- bilə mənə yalan söz isnad edərsə cəhənnəmdəki yerini hazırlasın*”- [Əş-Şeybani, 1983, I/120; Ət-Tayalisi,1999, I, 268; Əd-Darimi, 2000, I/303-304] hədisini əsas alaraq, hədis nəqli məsələsində ehtiyatlı davranmışlar. Hədisdən də aydın olduğu kimi insanları Allaha itaətə və ya Qurana yönləndirmək niyyəti ilə də olsa, Peyğəmbər adına hədis uydurmaq yolverilməzdir.Bu kimi hədislərdən çəkinmək lazımdır.

## ƏDƏBİYYAT

**1.** Acluni, İsmail İbn Məhəmməd əl-Cərrahi. (2001). *Kəşfu-l-Xafa və Muzili-l-İlbas Ammə İştəhara Minə-l-Əhadisi Ala Əlsinəti-n-Nəs* (I–II). (Təhq.: Yusuf İbn Mahmud əl-Hac Əhməd). Dəməşq: Məktəbətu İlmi-l-Hadis.
**2.** Akın, G. (2015). *Beyzavi Tefsirinde Uydurma Hadisler* (Yüksək lisans tezi, s.127). Konya.
**3.** Akpınar, Ö. F. (2011). Fezailu-l-Kuran edebiyatı. *Sakarya Universiteti İlahiyat Fakültəsi*, 9, XVII, 177–194.
**4.** Akyüz, A. (1988). Abdürrezzâk Es-San‘ânî. İçində: *İslam Ansiklopedisi* (Cild I, s.298–299). İstanbul: Türkiye Diyanet Vakfı.
**5.** Alusi, Ş. d.-D. M. İ. A. əl-Hüseyni. (1415). *Ruhu-l-Məani Fi Təfsiri-l-Qurani-l-Azim və-s-Səbi-l-Məsəni* (Cild I–XVI). (Tədq.: Əli Abdu-l-Bari Atiyyə). Dəru-l-Kutubi-l-İlmiyyə.
**6.** Arıcı, M. (2017). *İslam ilim və düşüncə geleneğinde Kadı Beyzavi*. Ankara.
**7.** Aşıkkutlu, E. (2003). Meçhul. İçində: *İslam Ansiklopedisi* (Cild XXVIII, s.286–288). Ankara: Türkiye Diyanet Vakfı.
**8.** Ay, M. (2014). Osmanlıda tefsir fəaliyyətləri. (M. A. Koç Red.), İçində: *Tefsir El Kitabı*. Ankara: Grafiker Yayınlar.
**9.** Aydınlı, A. (1993). Dârimî, Abdullah b. Abdurrahman. İçində: *İslam Ansiklopedisi* (Cild VIII, s.494–495). İstanbul: Türkiye Diyanet Vakfı.
**10.** Aydınlı, A. (2004). Mevkuf. İçində: *İslam Ansiklopedisi* (Cild XXIX, s.437–438). Ankara: Türkiye Diyanet Vakfı.
**11.** Aydınlı, A. (2009). Sakit. İçində: *İslam Ansiklopedisi* (Cild XXXVI, s.5). İstanbul: Türkiye Diyanet Vakfı.
**12.** Başaran, S. (1995). Fellas. İçində: *İslam Ansiklopedisi* (Cild XII, s.309). İstanbul: Türkiye Diyanet Vakfı.

**13.** Beyhaqi, Əhməd İbn əl-Hüseyn İbn Əli İbn Musa əl-Xorasani. (1410). *Şuabu-l-İman* (Cild I–VIII). (Təhq.: Məhəmməd əs-Səid Bəsyuni Zağlul). Beyrut: Daru-l-Kutubu-l-İlmiyyə.
**14.** Beyhaqi, Ə. İ. əl-H. İ. Ə. İ. M. əl-Xorasani. (2003). *Əs-Sünənu-l-Kubra* (III nəşr, s.790). (Mühəqqiq: Məhəmməd Abduqadir Ata). Beyrut: Daru-l-Kutubu-l-İlmiyyə. (Əvvəlki nəşr: 1960).
**15.** Beyzâvî, Nasirəddin Əbul Xeyr Abdullah İbn Ömər. (1418). *Ənvar ət-Tənzil və Əsrar ət-Təvil* (Cild I–V). (Mühəqqiq: Məhəmməd Abdurrahman əl-Maraşlı). Beyrut: Dəru-l-Turasi-l-Arabiyyi.
**16.** Beyzâvî, Nasirəddin Əbul Xeyr Abdullah İbn Ömər. (1971). *Ənvar ət-Tənzil və Əsrar ət-Təvil* (Cild I–II). Beyrut: Dəru-l-Kutubu-l-İlmiyyə.
**17.** Buxari, Əbu Abdullah Məhəmməd İbn İsmail. (1987). *Əl-Camiu-s-Sahih* (Cild IV, s.1623). Beyrut: Daru İbn Kəsir.
**18.** Bursevi, İ. H. (1985). *Təfsiru Ruhi-l-Bəyan*. Beyrut: BYY.
**19.** Cerrahoğlu, İ. (1995). Envâru't-Tezîl ve Esrâru't-Te'vîl Beyzâvî'nin Kur'ân Tefsiri. İçində: *İslam Ansiklopedisi* (Cild XI, s.260–261). İstanbul: Türkiye Diyanet Vakfı.
**20.** Cirit, H. (2016). *Hədis Tarixi* (Tərc.: Səlimli, Qoşqar, s.224). Bakı: Nurlar Nəşriyyat – Poliqraf Mərkəzi.
**21.** Çakan, İ. L. (1991). El-Âsâr. İçində: *İslam Ansiklopedisi* (Cild III, s.460). İstanbul: Türkiye Diyanet Vakfı.
**22.** Çelebi, İ. (1996). Fiten ve Melâhim. İçində: *İslam Ansiklopedisi* (Cild XIII, s.149–153). İstanbul: Türkiye Diyanet Vakfı.
**23.** Çələbi, K. (1971). *Kəşfu-z-Zunun* (Cild I–II). İstanbul: MEB.
**24.** Darimi, Əbu Məhəmməd Abdullah İbn Abdurrahman. (2013). *Sünən* (Cild I, s.791). (Mühəqqiq: Nəbil Haşim əl-Ğamari). Dəru-l-Bəşəir.
**25.** Deyləmi, Əbu Şuca Şirəveyh İbn Şəhrdar İbn Şirəveyh əl-Həməzani. (1986). *əl-Firdəvs bi Məsiri-l-Xitab* (Cild I–V). (Təhq.: Əs-Səid Bəsyuni Zəğlul). Beyrut: Dəru-l-Kutubi-l-İlmiyyə.
**26.** Efendioğlu, M. (2003). Maktu. İçində: *İslam Ansiklopedisi* (Cild XXVII, s.457–458). Ankara: Türkiye Diyanet Vakfı.
**27.** Efendioğlu, M. (2004). Metrük. İçində: *İslam Ansiklopedisi* (Cild XXIX, s.415–416). Ankara: Türkiye Diyanet Vakfı.
**28.** Efendioğlu, M. (2006). Münker. İçində: *İslam Ansiklopedisi* (Cild XXXII, s.13–14). İstanbul: Türkiye Diyanet Vakfı.
**29.** Efendioğlu, M. (2009). Salih. İçində: *İslam Ansiklopedisi* (Cild XXXVI, s.32). İstanbul: Türkiye Diyanet Vakfı.
**30.** Efendioğlu, M. (2020). Mudal. İçində: *İslam Ansiklopedisi* (Cild XXX, s.354–355). Ankara: Türkiye Diyanet Vakfı.

**31.** Erul, B. (2007). Rebîʿ b. Habîb. İçində: *İslam Ansiklopedisi* (Cild XXXIV, s.494–495). İstanbul: Türkiye Diyanet Vakfı.
**32.** Əbu Davud, Süleyman İbn əl-Əşas əs-Sicistani. (2009). *Sünənu Əbu Davud* (Cild I–V). (Mühəqqiq: Şuayb əl-Ərnəud; Məhəmməd Kamil). Dəru-r-Risələti-l-Aləmiyyə.
**33.** Əbu Davud, Süleyman İbn Əşas əs-Sicistani. (tarixsiz). *əs-Sünən* (Dok. İşi, Cild II, s.71). (Mühəqqiq: Məhəmməd Muhyiddin Abdulhəmid). İstanbul: Əl-Məktəbətu-l-İslami.
**34.** Əbu Nuaym, Abdullah İbn Abdullah. (1998). *Marifətu-s-Sahabə* (Cild I–VII). (Təhq.: Adil İbn Yusuf). Riyad.
**35.** Əbu Suud, əl-Umadi Məhəmməd İbn Məhəmməd İbn Mustafa. (tarixsiz). *İrşədu-l-Aqli-s-Səlim ilə Məzəyə-l-Kitəbi-l-Kərim* (Cild I–IX). Beyrut: Dəru İhyai-t-Turasi-l-Arabiyyi.
**36.** Əd-Darakutni, Əbul Həsən Əli ibn Ömər. (2004). *Sunənu-d-Darakutni* (Cild I–V). (Mühəqqiq: Şuayb əl-Ərnəut; Həsən Abdul Munam). Beyrut: Müəssəstu-r-Risələ.
**37.** Əd-Darimi, Əbu Məhəmməd Abdullah İbn Abdurrahman. (2000). *Sunənu-d-Darimi* (Cild I–IV, s.753). (Mühəqqiq: Hüseyin Səlim Əsəd). Dəru-l-Muğni.
**38.** Əl-Azami, Məhəmməd Mustafa. (1992). Buhârî, Muhammed b. İsmâil. İçində: *İslam Ansiklopedisi* (Cild VI, s.368–372). İstanbul: Türkiye Diyanet Vakfı.
**39.** Əl-Əsqalani, Əhməd İbn Həcər. (tarixsiz). *əl-Kafi-ş-Şafi fi Təxrici Əhadisi-l-Kəşşaf* (s.191).
**40.** Əl-Məzhəri, Məhəmməd Sənəullah. (1412). *Ət-Təfsiru-l-Məzhəri* (s.283). (Mühəqqiq: Ğulam Nəbiyu-t-Tunisi). Pakistan: Məktəbətu-r-Ruşdiyyə.
**41.** Əl-İraqi, Zeynuddin Əbu-l-Fazl. (1992). *Əl-Muğni ani-l-Əsfar fi-l-Əsfar fi Təxrici mə fi-l-İhya Minə-l-Əxbar* (İhya Ulumiddinin Zeyli). Qahirə.
**42.** Əsiruddin Əndəlusi, Əbu Hayyan Məhəmməd İbn Yusuf İbn Əli. (1420). *Əl-Bəhru-l-Muhit fi-t-Təfsir* (s.687). (Mühəqqiq: Sıdqi Məhəmməd Cəmil). Beyrut: Dəru-l-Fikr.
**43.** Əş-Şeybani, Əbu Abdullah Əməd İbn Məhəmməd. (1983). *Fədailu-s-Sahabə* (Cild I–II, s.551). (Mühəqqiq: Vasiyulla Məhəmməd Abbas). Beyrut: Müəssəsətu-r-Risələ.
**44.** Əş-Şirbini, Şəmsəddin Məhəmməd İbn Əhməd əl-Xətib. (1285). *Əs-Siracu-l-Munir fi-l-İanə alə Marifəti Badi Məani Kələmi Rəbbinə-l-Hakimi-l-Xabir* (Cild I–IV, s.659). Qahirə: Mətbuatu-l-Bulaq (əl-Əmiriyyə).

**45.** Ət-Tayalisi, Əbu Davud Süleyman İbn Davud. (1999). *Məsnədu Əbi Davud Tayalisi* (Cild I–IV, s.521). (Mühəqqiq: Məhəmməd İbn Abdu-l-Muhsin). Misir: Dəru Hicr.
**46.** Ət-Tirmizi, Əbu İsa Məhəmməd İbn İsa. (1987). *Əs-Sünən* (Cild I–V). (Mühəqqiq: Əhməd Məhəmməd Şakir). Beyrut: Dəru-l-Kutubi-l-İlmiyyə.
**47.** Ət-Tirmizi, Məhəmməd ibn İsa əd-Dahhak. (1975). *Sünənu-t-Tirmizi* (Cild I–V, s.660). (Mühəqqiq: Əhməd Məhəmməd Şakir; Məhəmməd Fuad; İbrahim Atva). Misir: Mustafa əl-Bəbu-l-Hələbi.
**48.** Fəttəni, Məhəmməd Tahir İbn Əli əl-Hindi. (1323). *Təzkiratu-l-Məvduar Matbabatu-s-Səadə*. Misir.
**49.** Görmez, M. (2010). Taberânî. İçində: *İslam Ansiklopedisi* (Cild XXXIX, s.310–312). İstanbul: Türkiye Diyanet Vakfı.
**50.** Gurab, S. (1999). İbn Arafe. İçində: *İslam Ansiklopedisi* (Cild XIX, s.316–317). İstanbul: Türkiye Diyanet Vakfı.
**51.** Hacı, A. (2013). *El-Beyzavi müfessiran*. Dəməşq–Beyrut: Darun-Nevaadir.
**52.** Hatiboğlu, İ. (2003). Ma'mer b. Râşid. İçində: *İslam Ansiklopedisi* (Cild XXVII, s.552–554). İstanbul: Türkiye Diyanet Vakfı.
**53.** Hatiboğlu, İ. (2010). Süfyân b. Uyeyne. İçində: *İslam Ansiklopedisi* (Cild XXXVIII, s.28–29). İstanbul: Türkiye Diyanet Vakfı.
**54.** Heysəmi, Nurəddin Ali İbn Əbu Bəkir. (tarixsiz). *Məcmau-z-Zəvaid və mənbəu-l-Fəvaid* (Cild I–X). Beyrut: Daru-l-Fikr.
**55.** İbn Adiyy, Əbu Əhməd İbn Məhəmməd əl-Cürcani. (1988). *əl-Kamil fi Duafai-r-Rical*. (Təhq.: Yahya Muxtar). Beyrut: Daru-l-Fikr.
**56.** İbn əl-Cövzi, Əbul Fərəc Abdurrahman İbn Əli. (1966). *Kitabu-l-Məvduat minə-l-Mərfuat* (Nəşr I, s.430). (Təhq.: Məhəmməd Abdulmuhsin). Mədinə: Əl-Məktəbətu-l-Sələfiyyə.
**57.** İbn Manzur, Cəmaluddin Məhəmməd ibn Mükərrəm. (1994). *Lisanu-l-Arab* (Cild VIII). Beyrut: Daru-l-Fikr.
**58.** İbnu-l-Cövzi, Cəmalu-d-Din Abdu-r-Rahman əli İbn Məhəmməd. (1966–1968). *əl-Məvduat*. (Təhq.: Abdu-r-Rahman Məhəmməd Osman). Məktəbətu-l-Sələfiyyə.
**59.** İnan, S. (2023). Kizb (Yalan) ve "Men Kezebe Aleyye..." rivayetinin sahabe üzerindeki etkisi. *Tokat İlahiyyat Dergisi*, *11*(2), 465–484.
**60.** İpşirli, M. (1998). Huzur dersleri. İçində: *Diyanet İşleri Ansiklopedisi* (Cild XVIII).

**61.** İsmail Haqqı, İbn Mustafa əl-İstanbuli əl-Hənəfi. (tarixsiz). *Ruhu-l-Bəyan fi Təfsiri-l-Quran* (s.454). Beyrut: Dəru-l-Fikr.
**62.** Kandemir, M. Y. (1988). Abdullah b. Amr b. As. İçində: *İslam Ansiklopedisi* (Cild I, s.85–86). İstanbul: Türkiye Diyanet Vakfı.
**63.** Kandemir, M. Y. (1989). Ahmed b. Hanbel. İçində: *İslam Ansiklopedisi* (Cild II, s.75–80). İstanbul: Türkiye Diyanet Vakfı.
**64.** Kandemir, M. Y. (1991). Bakī b. Mahled. İçində: *İslam Ansiklopedisi* (Cild IV, s.541–542). İstanbul: Türkiye Diyanet Vakfı.
**65.** Kandemir, M. Y. (2004). Mövzu. İçində: *İslam Ansiklopedisi* (Cild XXIX, s.493–496). Ankara: Türkiye Diyanet Vakfı.
**66.** Kılıç, M. (2015). *Kıraat–Tefsir İlişkisi (Zemahşeri Örneyi)* (Nəşr 1, s.439). İstanbul: M. Ü. İlahiyyat Fakültesi Vakfı Yayınları.
**67.** Küçük, R. (1988). Abdullah b. Mübarek. İçində: *İslam Ansiklopedisi* (Cild I, s.122–124). İstanbul: Türkiye Diyanet Vakfı.
**68.** Qurani-Kərimin Tərcüməsi. (2015). (Tərc.: Ziya Bünyadov, Vasim Məmmədəliyev). *Quran Tərcüməsi* (Nəşr I, s.533). İstanbul: Mega Basın Yayın San. VE Tic. A.Ş., Diyanət İşləri Başqanlığı.
**69.** Munavi, Zeynəddin Məhəmməd. əl-Maduv. (tarixsiz). *Əl-Fəthu-s-Səməvi bi Təxrici Əhadisi-l-Qadi əl-Beydavi* (Cild I–III, s.455). (Mühəqqiq: Əhməd Müctəbi). Riyad: Dəru-l-Asimə.
**70.** Mustafayev, Ə. (2019). Beyzavi və Onun İslam Təfsir Ənənəsinin İnkişafında Rolu. *Azərbaycan İlahiyyat İnstitutu Din Araşdırmaları Jurnalı, 1*(2), 123–138.
**71.** Münavi, Zeynəddin əl-Maduv. (1356). *Feydu-l-Qadir* (Cild I–VI, s.552). Əl-Məktəbətu-t-Ticəriyyətu-l-Kubra.
**72.** Münavi, M. A. (2010). *Əl-Fəthu-s-Səmavi Bitəxrici Əhadisi-l-Beydavi* (Cild I). Riyad: Daru-l-Asımə.
**73.** Nisaburi, Nizaməddin əl-Hüseyn İbn Məhəmməd. (1416). *Ğaraibu-l-Quran və Rağaibu-l-Furqan* (s.629). (Mühəqqiq: Zəkəriyyə Umeyrat). Dəru-l-Kutubi-l-İlmiyyə.
**74.** Özdirek, R., & Çavuşoğlu, A. H. (2010). Süfyân Es-Sevrî. İçində: *İslam Ansiklopedisi* (Cild XXXVIII, s.23–28). İstanbul: Türkiye Diyanet Vakfı.
**75.** Özkan, H. (2011). Tayâlisî. İçində: *İslam Ansiklopedisi* (Cild XXXX, s.188–189). İstanbul: Türkiye Diyanet Vakfı.
**76.** Öztürk, A. (2017). *Beydavi Tefsiri* (Cild I–V). İstanbul: Kahramam Yayınları.
**77.** Razi, F. (1420). *Məfətihu-l-Ğayb* (Cild I–X, s.185). Dəru İhya-i-t-Turasi-l-Arabiyyə.
**78.** Razi, F. (1981). *Ət-Təfsiru-l-Kəbir və Məfətihu-l-Ğayb* (Cild XXX, Nəşr I, s.8271). Beyrut: Dəru-l-Fikr.

**79.** Saləbi, Əbu İshaq İbn Məhəmməd İbn İbrahim ən-Neysaburi. (2002). *əl-Kəşfu və-l-Bəyan* (Cild I–X). (Təhq.: Əbu Məhəmməd Aşur). Beyrut: Daru İlahiyyat Turasi-l-Arabi.
**80.** Səid İbn Mənsur, Şubə əl-Xorasani. (1997). *ət-Təfsir min Sünəni Səid İbn Mənsur* (Cild I–V, s.1226). (Mühəqqiq: Səid İbn Abdullah İbn Abdula Əziz). Dəru-s-Samii.
**81.** Subki, Tacuddin Əbi Abdilvəhhab. (1964). *Tabakatuş-Şafiyyətu-l-Kubra*. (Təhq.: Abdulfəttah Məhəmməd, Mahmud Məhəmməd). Misir: Mətbaatu İsa əl-Bani əl-Hələbi və Şuraqauhu.
**82.** Suyuti, Abdurrahman İbn Əbi Bəkir Cəlaləddin. (tarixsiz). *Əd-Durru-l-Mənsur* (Cild I–VIII, s.759).
**83.** Suyuti, Cəlaləddin Abdurrahman ibn Əbi-Bəkir. (1974). *Əl-İtqan fi Ulumul-Quran* (Cild I–IV). (Təhq.: Muhamməd Əbul-Fazl İbrahim). Heyətul-Mısrıyyətul-Ammətu lil-Kutub.
**84.** Şəvkani, Əbu Abdullah İbn Əli İbn Məhəmməd əl-Havlani. (1960). *Əl-Fəvaidu-l-Məcmua fi-l-Əhadisi-l-Məvzua*. (Təhq.: Abdurrahman İbn Yahya). Beyrut: Daru-l-Məktəbəti-l-İlmiyyə.
**85.** Şəvkani, Məhəmmdəd İbn Əli İbn Məhəmməd. (1414). *Fəthu-l-Qadir* (s.632). Dəməşq-Beyrut: Dəru İbni Kəsir.
**86.** Uğur, M. (1997). Hasen. İçində: *İslam Ansiklopedisi* (Cild XVI, s.374–375). İstanbul: Türkiye Diyanet Vakfı.
**87.** Yazıcı, M. (2021). Hadis Literatüründe Uydurma Rivayetlerle İlgili Kavramlar. *Rumeli İslam Araşdırmalar Jurnalı*, (4), 146–178.
**88.** Yücel, A. (2008). Sika. İçində: *İslam Ansiklopedisi* (Cild XXXV, s.431). İstanbul: Türkiye Diyanet Vakfı.
**89.** Yücel, A. (2009). Sika. İçində: *İslam Ansiklopedisi* (Cild XXXVII, s.175–176). İstanbul: Türkiye Diyanet Vakfı.
**90.** Yücel, A. (2016). *Hadis Tarihi* (Nəşr XXIV, s.324). İstanbul: Marmara Üniversitesi İlahiyyat Fakültesi Vakfı Yayınları, No.251.
**91.** Zeylai, Cəməluddin Əbu Məhəmməd Abdullah İbn Yusuf. (1414). *Təxricu-l-Əhadi və-l-Əsari-l-Vəqia fi Təfsiri-l-Kəşşaf li-z-Zəməxşəri* (Cild I–IV, s.483). (Mühəqqiq: Abdullah İbn Abdurrahman). Riyad: Dəru İbni Xəzimə.
**92.** Zəməxşəri, Əbul Qasım Məhəmməd İbn Ömər. (1407). *əl-Kəşşaf an Haqaiqi Ğavamidi-t-Tənzil və Uyuni-l-Əqavili Fi Vucuhi-t-Təvil* (Cild I–IV, s.698). Dəru-l-Kitabi-l-Arabiyyə.
**93.** Zəməxşəri, Əbul Qasım Məhəmməd İbn Ömər. (1998). *əl-Kəşşaf an Haqaiqi Ğavamidi-t-Tənzil və Uyuni-l-Əqavili Fi Vucuhi-t-Təvil* (Cild V, s.3897). (Təhq.: Abdur Rahman Əhməd Hicəzi). Riyad: Məktəbəu-l-Abikan.

## REFERENCES

**1.** Acluni, Ismail Ibn Muhammad al-Jarrahi. (2001). *Kashf al-Khafa wa Muzil al-Ilbas Amma Ishtahara Mina al-Ahadith Ala Alsinat al-Nas* (Vols. I–II). (Ed. Yusuf Ibn Mahmud al-Hajj Ahmad). Damascus: Maktabat Ilm al-Hadith. (in Arabic)
**2.** Akin, G. (2015). *Fabricated Hadiths in Beyzavi Tafsir* (Master's thesis, p.127). Konya. (in Turkish)
**3.** Akpinar, O. F. (2011). *The Literature of Fada'il al-Qur'an*. Sakarya University Faculty of Theology, 9, XVII, 177–194. (in Turkish)
**4.** Akyuz, A. (1988). Abdurrazzaq al-San‘ani. In *Islamic Encyclopedia* (Vol. I, pp.298–299). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**5.** Alusi, Shihab al-Din Mahmud Ibn Abdullah al-Husayni. (1415 AH). *Ruh al-Ma‘ani fi Tafsir al-Qur'an al-Azim wa al-Sab‘ al-Mathani* (Vols. I–XVI). (Ed. Ali Abd al-Bari Atiyya). Dar al-Kutub al-Ilmiyya. (in Arabic)
**6.** Arici, M. (2017). *Qadi Beyzavi in the Tradition of Islamic Science and Thought*. Ankara. (in Turkish)
**7.** Ashikkutlu, E. (2003). Majhul. In *Islamic Encyclopedia* (Vol. XXVIII, pp.286–288). Ankara: Turkish Religious Foundation. (in Turkish)
**8.** Ay, M. (2014). Tafsir Activities in the Ottoman Empire. (Ed. by M. A. Koc), In *Tafsir Handbook*. Ankara: Grafiker Publishing. (in Turkish)
**9.** Aydinli, A. (1993). Darimi, Abdullah b. Abdurrahman. In *Islamic Encyclopedia* (Vol. VIII, pp.494–495). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**10.** Aydinli, A. (2004). Mawquf. In *Islamic Encyclopedia* (Vol. XXIX, pp.437–438). Ankara: Turkish Religious Foundation. (in Turkish)
**11.** Aydinli, A. (2009). Sakit. In *Islamic Encyclopedia* (Vol. XXXVI, p.5). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**12.** Basaran, S. (1995). Fallas. In *Islamic Encyclopedia* (Vol. XII, p.309). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**13.** Bayhaqi, Ahmad Ibn al-Husayn Ibn Ali Ibn Musa al-Khurasani. (1410 AH). *Shu‘ab al-Iman* (Vols. I–VIII). (Ed. by Muhammad al-Said Basyuni Zaghlul). Beirut: Dar al-Kutub al-Ilmiyya. (in Arabic)
**14.** Bayhaqi, Ahmad Ibn al-Husayn Ibn Ali Ibn Musa al-Khurasani. (2003). *Al-Sunan al-Kubra* (3rd ed., p.790). (Ed. by Muhammad Abduqadir Ata). Beirut: Dar al-Kutub al-Ilmiyya. (Previous edition: 1960). (in Arabic)
**15.** Beyzavi, Nasir al-Din Abu al-Khayr Abdullah Ibn Umar. (1418 AH). *Anwar al-Tanzil wa Asrar al-Ta'wil* (Vols. I–V). (Ed. by Muhammad Abdurrahman al-Marashli). Beirut: Dar al-Turath al-Arabi. (in Arabic)
**16.** Bayzavi, Nasiraddin Abul Khayr Abdullah Ibn Omar. (1971). *The Lights of Revelation and the Secrets of Interpretation* (Vols. I–II). Beirut: Dar al-Kutub al-Ilmiyya. (in Arabic)

**17.** Bukhari, Abu Abdullah Muhammad Ibn Ismail. (1987). *Al-Jami' al-Sahih* (Vol. IV, p.1623). Beirut: Dar Ibn Kathir. (in Arabic)
**18.** Bursevi, I. H. (1985). *Interpretation of the Spirit of the Explanation*. Beirut: BYY. (in Arabic)
**19.** Cerrahoglu, I. (1995). The Qur'anic Commentary of Bayzavi: Anwar al-Tanzil wa Asrar al-Ta'wil. In *Islamic Encyclopedia* (Vol. XI, pp.260–261). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**20.** Cirit, H. (2016). *History of Hadith* (Trans. Goshgar Selimli, p.224). Baku: Nurlar Publishing – Polygraph Center. (in Azerbaijani)
**21.** Cakan, I. L. (1991). Al-Athar. In *Islamic Encyclopedia* (Vol. III, p.460). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**22.** Celebi, I. (1996). Tribulations and Catastrophes. In *Islamic Encyclopedia* (Vol. XIII, pp.149–153). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**23.** Chalabi, K. (1971). *Kashf al-Zunun* (Vols. I–II). Istanbul: Ministry of Education Publications. (in Arabic)
**24.** Darimi, Abu Muhammad Abdullah Ibn Abdurrahman. (2013). *Sunan* (Vol. I, p.791). (Editor: Nabil Hashim al-Ghamari). Dar al-Bashair. (in Arabic)
**25.** Daylami, Abu Shuja Shirawayh Ibn Shahrdar Ibn Shirawayh al-Hamadani. (1986). *Al-Firdaws bi Ma'thur al-Khitab* (Vols. I–V). (Ed. al-Said Basyuni Zaghlul). Beirut: Dar al-Kutub al-Ilmiyya. (in Arabic)
**26.** Efendioglu, M. (2003). Maktu. In *Islamic Encyclopedia* (Vol. XXVII, pp.457–458). Ankara: Turkish Religious Foundation. (in Turkish)
**27.** Efendioglu, M. (2004). Matruk. In *Islamic Encyclopedia* (Vol. XXIX, pp.415–416). Ankara: Turkish Religious Foundation. (in Turkish)
**28.** Efendioglu, M. (2006). Munkar. In *Islamic Encyclopedia* (Vol. XXXII, pp.13–14). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**29.** Efendioglu, M. (2009). Salih. In *Islamic Encyclopedia* (Vol. XXXVI, p.32). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**30.** Efendioglu, M. (2020). Mudal. In *Islamic Encyclopedia* (Vol. XXX, pp.354–355). Ankara: Turkish Religious Foundation. (in Turkish)
**31.** Erul, B. (2007). Rabi' b. Habib. In *Islamic Encyclopedia* (Vol. XXXIV, pp.494–495). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**32.** Abu Dawud, Suleyman Ibn al-Ashas al-Sijistani. (2009). *Sunan Abu Dawud* (Vols. I–V). (Editors: Shu'ayb al-Arna'ut & Muhammad Kamil). Dar al-Risala al-Alamiyya. (in Arabic)
**33.** Abu Dawud, Suleyman Ibn Ashas al-Sijistani. (n.d.). *As-Sunan* (Manuscript, Vol. II, p.71). (Editor: Muhammad Muhyiddin Abdulhamid). Istanbul: al-Maktaba al-Islami. (in Arabic)
**34.** Abu Nu'aym, Abdullah Ibn Abdullah. (1998). *Knowledge of the Companions* (Vols. I–VII). (Ed. Adil Ibn Yusuf). Riyadh. (in Arabic)

**35.** Abu Suud, al-Umadi Muhammad ibn Muhammad ibn Mustafa. (n.d.). *Guiding the Sound Mind to the Merits of the Noble Book* (Vols. I–IX). Beirut: Daru Ihyai at-Turath al-Arabi. (in Arabic)

**36.** Ad-Daraqutni, Abu al-Hasan Ali ibn Umar. (2004). *The Sunan of ad-Daraqutni* (Vols. I–V) (Researchers: Shuayb al-Arnaut, Hasan Abdul Munam). Beirut: Muassasat ar-Risalah. (in Arabic)

**37.** Ad-Darimi, Abu Muhammad Abdullah ibn Abdurrahman. (2000). *The Sunan of ad-Darimi* (Vols. I–IV, p.753) (Researcher: Hussein Salim Asad). Dar al-Mughni. (in Arabic)

**38.** Al-Azami, Muhammad Mustafa. (1992). Bukhari, Muhammad b. Ismail. In *Islamic Encyclopedia* (Vol. VI, pp.368–372). Istanbul: Turkish Religious Foundation. (in Turkish)

**39.** Al-Asqalani, Ahmad ibn Hajar. (n.d.). *The Sufficient and Healing Commentary for Tracing the Hadiths of al-Kashshaf* (p.191). (in Arabic)

**40.** Al-Mazhari, Muhammad Sanullah. (1412 AH). *The Mazhari Commentary* (p.283) (Researcher: Ghulam Nabiyyu at-Tunisi). Pakistan: Maktabat ar-Rushdiyyah. (in Arabic)

**41.** Al-Iraqi, Zaynuddin Abu al-Fadl. (1992). *The Enricher from Travel in Tracing the Reports in Ihya Ulum ad-Din* (Supplement to Ihya Ulum al-Din). Cairo. (in Arabic)

**42.** Asiruddin Andalusi, Abu Hayyan Muhammad ibn Yusuf ibn Ali. (1420 AH). *The Expansive Sea in Tafsir* (p.687) (Researcher: Sidqi Muhammad Jamil). Beirut: Dar al-Fikr. (in Arabic)

**43.** Ash-Shaybani, Abu Abdullah Ahmad ibn Muhammad. (1983). *The Virtues of the Companions* (Vols. I–II, p.551) (Researcher: Wasiyyullah Muhammad Abbas). Beirut: Muassasat ar-Risalah. (in Arabic)

**44.** Ash-Shirbini, Shamsuddin Muhammad ibn Ahmad al-Khatib. (1285 AH). *The Radiant Lamp in Assistance with Understanding the Sublime Meanings of the Speech of Our Wise and All-Aware Lord* (Vols. I–IV, p.659). Cairo: Matbuat al-Bulaq (al-Amiriyyah). (in Arabic)

**45.** At-Tayalisi, Abu Dawud Sulayman ibn Dawud. (1999). *The Musnad of Abi Dawud at-Tayalisi* (Vols. I–IV, p.521) (Researcher: Muhammad ibn Abdul-Muhsin). Egypt: Dar Hajr. (in Arabic)

**46.** At-Tirmidhi, Abu Isa Muhammad ibn Isa. (1987). *The Sunan* (Vols. I–V) (Researcher: Ahmad Muhammad Shakir). Beirut: Dar al-Kutub al-Ilmiyyah. (in Arabic)

**47.** At-Tirmidhi, Muhammad ibn Isa ad-Dahhak. (1975). *The Sunan of at-Tirmidhi* (Vols. I–V, p.660) (Researchers: Ahmad Muhammad Shakir, Muhammad Fuad, Ibrahim Atwah). Egypt: Mustafa al-Babi al-Halabi. (in Arabic)

**48.** Fattani, Muhammad Tahir ibn Ali al-Hindi. (1323 AH). *A Reminder on Fabricated Hadiths*. Egypt. (in Arabic)

**49.** Gormez, M. (2010). Taberani. In *Islam Encyclopedia* (Vol. XXXIX, pp.310–312). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**50.** Gurab, S. (1999). Ibn Arafe. In *Islam Encyclopedia* (Vol. XIX, pp.316–317). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**51.** Haci, A. (2013). *Al-Beyzavi the Commentator.* Damascus–Beirut: Darun Nevaadir. (in Arabic)
**52.** Hatiboglu, I. (2003). Ma‘mer ibn Rashid. In *Islam Encyclopedia* (Vol. XXVII, pp.552–554). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**53.** Hatiboglu, I. (2010). Sufyan ibn Uyayna. In *Islam Encyclopedia* (Vol. XXXVIII, pp.28–29). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**54.** Heysemi, Nuredin Ali ibn Abu Bakr. (n.d.). *Collection of Additions and Source of Benefits* (Vols. I–X). Beirut: Dar al-Fikr. (in Arabic)
**55.** Ibn Adiyy, Abu Ahmad ibn Muhammad al-Jurjani. (1988). *The Complete in the Weaknesses of the Narrators* (Researcher: Yahya Mukhtar). Beirut: Dar al-Fikr. (in Arabic)
**56.** Ibn al-Jawzi, Abul Faraj Abdurrahman ibn Ali. (1966). *Book of Fabrications from the Marfu'at* (1st ed., p.430) (Researcher: Muhammad Abdulmuhsin). Medina: Al-Maktaba al-Salafiyya. (in Arabic)
**57.** Ibn Manzur, Jamaluddin Muhammad ibn Mukarram. (1994). *Lisan al-Arab* (Vol. VIII). Beirut: Dar al-Fikr. (in Arabic)
**58.** Ibn al-Jawzi, Jamaluddin Abdur-Rahman Ali ibn Muhammad. (1966–1968). *Al-Mawduat* (Researcher: Abdur-Rahman Muhammad Osman). Maktaba al-Salafiyya. (in Arabic)
**59.** Inan, S. (2023). Lies and the effect of the narration "Whoever lies about me..." on the companions. *Tokat Theology Journal, 11*(2), 465–484. (in Turkish)
**60.** Ipshirli, M. (1998). Lessons on Presence. In *Diyanet Affairs Encyclopedia* (Vol. XVIII). (in Turkish)
**61.** Ismail Haqqi, Ibn Mustafa al-Istanbuli al-Hanafi. (n.d.). *Spirit of Explanation in Quranic Tafsir* (p.454). Beirut: Dar al-Fikr. (in Arabic)
**62.** Kandemir, M. Y. (1988). Abdullah ibn Amr ibn As. In *Islam Encyclopedia* (Vol. I, pp.85–86). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**63.** Kandemir, M. Y. (1989). Ahmad ibn Hanbal. In *Islam Encyclopedia* (Vol. II, pp.75–80). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**64.** Kandemir, M. Y. (1991). Baki ibn Mahled. In *Islam Encyclopedia* (Vol. IV, pp.541–542). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**65.** Kandemir, M. Y. (2004). Movzu. In *Islam Encyclopedia* (Vol. XXIX, pp.493–496). Ankara: Turkish Religious Foundation. (in Turkish)
**66.** Kilic, M. (2015). *The Relationship Between Recitation and Tafsir (Zamahshari Example)* (1st ed., p.439). Istanbul: M. U. Faculty of Theology Foundation Publications. (in Turkish)
**67.** Kucuk, R. (1988). Abdullah ibn Mubarak. In *Islam Encyclopedia* (Vol. I, pp.122–124). Istanbul: Turkish Religious Foundation. (in Turkish)

**68.** Translation of the Quran. (2015). (Translators: Ziya Buneydov, Vasim Mammadaliyev). *Quran Translation* (1st ed., p.533). Istanbul: Mega Basin Yayin San. VE Tic. A.S., Diyanet Isleri Baskanligi. (in Azerbaijani)
**69.** Munavi, Zeyneddin Muhammad. al-Maduv. (n.d.). *The Heavenly Victory in Tracing the Hadiths of al-Qadi al-Baydawi* (Vols. I–III, p.455). (Researcher: Ahmad Mujtaba). Riyadh: Dar al-Asimah. (in Arabic)
**70.** Mustafayev, A. (2019). The Role of Beyzavi and His Contribution to the Development of Islamic Tafsir Tradition. *Azerbaijan Institute of Theology Journal of Religious Studies*, *1*(2), 123–138. (in Azerbaijani)
**71.** Munavi, Zeyneddin al-Maduv. (1356 AH). *Faydu-l-Qadir* (Vols. I–VI, p.552). Al-Maktabat at-Tijariyyatu-l-Kubra. (in Arabic)
**72.** Munavi, M. A. (2010). *The Heavenly Victory in Tracing the Hadiths of al-Baydawi* (Vol. I). Riyadh: Dar al-Asimah. (in Arabic)
**73.** Nisaburi, Nizameddin al-Huseyn ibn Muhammad. (1416 AH). *Strangeness of the Quran and Desires of the Criterion* (p.629). (Researcher: Zakariya Umayrat). Dar al-Kutub al-Ilmiyya. (in Arabic)
**74.** Ozdirek, R., & Cavusoglu, A. H. (2010). Sufyan al-Sawri. In *Islam Encyclopedia* (Vol. XXXVIII, pp.23–28). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**75.** Ozkan, H. (2011). Tayalisi. In *Islam Encyclopedia* (Vol. XL, pp.188–189). Istanbul: Turkish Religious Foundation. (in Turkish)
**76.** Ozturk, A. (2017). Baydawi Tafsir (Vols. I–V). Istanbul: Kahraman Yayinlari. (in Turkish)
**77.** Razi, F. (1420 AH). *The Keys to the Unseen* (Vols. I–X, p.185). Dar Ihya at-Turath al-Arabiyya. (in Arabic)
**78.** Razi, F. (1981). *The Great Tafsir and The Keys to the Unseen* (Vol. XXX, 1st ed., p.8271). Beirut: Dar al-Fikr. (in Arabic)
**79.** Salabi, Abu Ishaq ibn Muhammad ibn Ibrahim an-Nisaburi. (2002). *The Unveiling and Explanation* (Vols. I–X). (Researcher: Abu Muhammad Ashur). Beirut: Daru Ilahiyyat Turath al-Arabi. (in Arabic)
**80.** Said ibn Mansur, Shuba al-Khorasani. (1997). *Tafsir from the Sunan of Said ibn Mansur* (Vols. I–V, p.1226). (Researcher: Said ibn Abdullah ibn Abdula Aziz). Dar al-Sami. (in Arabic)
**81.** Subki, Tajuddin Abi Abdilwahhab. (1964). *The Major Categories of the Pure* (Researcher: Abdulfattah Muhammad, Mahmud Muhammad). Egypt: Matba'at Isa al-Bani al-Halabi wa Shurakauhu. (in Arabic)
**82.** Suyuti, Abdurrahman ibn Abi Bakr Jalaluddin. (n.d.). *The Victorious Pearls* (Vols. I–VIII, p.759). (in Arabic)
**83.** Suyuti, Jalaladdin Abdurrahman ibn Abi-Bakr. (1974). *Al-Itqan fi Ulum al-Qur’an* (Vols. I–IV). (Ed. Muhammad Abul-Fadl Ibrahim). General Egyptian Book Organization. (in Arabic)

**84.** Shawkani, Abu Abdullah ibn Ali ibn Muhammad al-Hawlani. (1960). *The Collected Benefits Regarding Fabricated Hadiths*. (Ed. Abdurrahman ibn Yahya). Beirut: Dar al-Maktabah al-Ilmiyya. (in Arabic)

**85.** Shawkani, Muhammad ibn Ali ibn Muhammad. (1414 AH). *Fath al-Qadir* (p.632). Damascus–Beirut: Dar Ibn Kathir. (in Arabic)

**86.** Ugur, M. (1997). Hasan. In *Islam Encyclopedia* (Vol. XVI, pp.374–375). Istanbul: Turkish Religious Foundation. (in Turkish)

**87.** Yazici, M. (2021). Concepts Related to Fabricated Narrations in Hadith Literature. *Rumeli Journal of Islamic Studies,* (4), 146–178. (in Turkish)

**88.** Yucel, A. (2008). Thiqah. In *Islam Encyclopedia* (Vol. XXXV, p.431). Istanbul: Turkish Religious Foundation. (in Turkish)

**89.** Yucel, A. (2009). Thiqah. In *Islam Encyclopedia* (Vol. XXXVII, pp.175–176). Istanbul: Turkish Religious Foundation. (in Turkish)

**90.** Yucel, A. (2016). *History of Hadith* (24th ed., p.324). Istanbul: Publications of the Faculty of Theology, Marmara University, No.251. (in Turkish)

**91.** Zaylai, Jamaladdin Abu Muhammad Abdullah ibn Yusuf. (1414 AH). *Verification of the Hadiths and Narrations in al-Kashshaf of al-Zamakhshari* (Vols. I–IV, p.483). (Ed. Abdullah ibn Abdurrahman). Riyadh: Dar Ibn Khuzaymah. (in Arabic)

**92.** Zamakhshari, Abu al-Qasim Muhammad ibn Umar. (1407 AH). *al-Kashshaf on the Realities of the Ambiguities of Revelation and the Essence of Interpretations* (Vols. I–IV, p.698). Beirut: Dar al-Kitab al-Arabiyya. (in Arabic)

**93.** Zamakhshari, Abu al-Qasim Muhammad ibn Umar. (1998). *al-Kashshaf on the Realities of the Ambiguities of Revelation and the Essence of Interpretations* (Vol. V, p.3897). (Ed. Abdur Rahman Ahmad Hijazi). Riyadh: Maktabat al-Obeikan. (in Arabic)